GÜNDOĞAR

22 yanvar 2017-ci il № 1 - 2 (6625)

İCTİMAİ-SİYASİ QƏZET

Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

AZƏRBAYCAN O ÖLKƏLƏRDƏNDİR Kİ, BU BÖHRANLI VƏZİYYƏTDƏN DƏ UĞURLA ÇIXA BİLMİŞDİR

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin bu il yanvar ayının 10-da 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2017-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dediyi bu sözlər hər birimizdə qürur doğurdu. İclası giriş nitqi ilə açan dövlətimizin başçısı bildirdi ki, 2016-cı ildə ölkəmiz öz inamlı inkişafını davam etdirib, burada təhlükəsizlik tədbirləri təmin olunub, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşayıb və bu gün də yaşayır.

Müstəqilliyimizin bərpasının 25 illiyinin gözəl bayram kimi qeyd edildiyini, yaxşı nəticələrlə, uğurla qarşılandığını qeyd edən Prezident İlham Əliyev dedi: "İqtisadi sahədə 2016-cı ildə önəmli addımlar atılmışdır. 2016-cı il dərin iqtisadi islahatlar ili kimi tarixdə qalacaq. Bu il ərzində qəbul edilmiş qərarlar, qanunlar, mənim tərəfinmdən imzalanmış sərəncamlar iqtisadi islahatları daha da dərinləşdirir və bizə imkan verir ki, gələcəkdə qeyri-neft sektorunun hesabına inkişaf edək. Qəbul edilmiş qərarlar artıq öz bəhrəsini verməkdədir. Əminəm ki, bu nəticələr bu il və bundan sonrakı illərdə daha qabarıq şəkildə özünü göstərəcək.

Ümumi daxili məhsul aşağı düşsə də — bunun əsas səbəbi neftin qiymətinin 3-4 dəfə aşağı düşməsidir və bundan irəli gələn investisiyaların, dövlət investisiyalarının azalmasıdır — digər önəmli göstəricilər bizi sevindirir. Xüsusilə ölkəmizdə qeyri-neft sənaye istehsalı keçən il 5 faiz artmışdır. Bu o deməkdir ki, bizim uzun illər ərzində apardığımız siyasət öz nəticəsini göstərir. Digər önəmli göstərici kənd təsərrüfatının inkişafıdır... Kənd təsərrüfatında da görülmüş operativ tədbirlər nəticəsində inkişaf təmin edilmiş və kənd təsərrüfatı Azərbaycanda 2,6 faiz artmışdır."

Bu gün bütün dünyada iqtisadi böhran yaşanır, maliyyə çətinlikləri müşahidə olunur. Belə vəziyyətdə xaricdən investisiya gətirmək heç də asan deyil. Amma ölkəmizdəki gözəl şərait buna imkan verib. Xaricdən Azərbaycana 8 milyard dollar investisiya cəlb edilib. Daxili sərmayənin həcmi isə 3,7 milyard dollar olmuşdur. İstər xarici, istərsə də daxili sərmayələrin həcmi əvvəlki illərlə müqayisədə azalsa da, bütün dünyada yaşanan iqtisadi böhranın doğurduğu ciddi çətinliklər şəraitində bunu müsbət göstərici kimi dəyərləndirmək olar. Ötən ildə sosial məsələlərin həllində də irəliləyişlər olub. Əmək haqlarının 7, pensiyaların 8 faiz artması buna əyani misaldır. Dövlət başçısının sözlərindən aydın oldu ki, bu məsələ cari ildə də daim diqqət mərkəzində olacaqdır. Cətinliklərə baxmayaraq hesabat ilində ölkəmizdə 485 məktəbin təmir edilməsi, 29 yeni məktəbin tikilməsi, 41 xəstəxananın inşa olunması və yenidən qurulması sosial infrastruktur layihələrinin uğurla icra edilməsidir.

Giriş nitqində Prezident İlham Əliyev ictimai xidmətlər sahəsindəki uğurlar, böhran şəraitinə baxmayaraq ölkəmizə turist axınının güclənməsi, enerji siyasətinin təkmilləşdirilməsi, nəqliyyat sektorunun yeniləşdirilməsi istiqamətində atılan növbəti addımlar, o cümlədən "Cənub-qaz dəhlizi"nin icrasının uğurla davam etdirilməsi, "Şimal-Cənub dəhlizi"nin yaradılması istiqamətində çox ciddi addımların atılması, ölkəmizdə ötən il keçirilən referendumda xalqımızın öz iradəsini bir daha ortaya qoyması, "Multikulturalizm ili" çərçivəsində görülən işlər, həyata keçirilən tədbirlər və digər məsələlər barədə geniş məlumat verdi. Ötən ilin aprelindəki döyüşləri şanlı tariximiz, böyük qələbəmiz kimi dəyərləndirdi.

Dövlətimizin başçısı yekun nitqində qarşıda duran vəzifələrə hərtərəfli aydınlıq gətirdi, bu vəzifələrin nədən ibarət olduğunu diqqətə çatdırdı. Qeyd etdi ki, mənzil inşaatı davam etdirilməli, Bakı şəhərində köhnəlmiş mənzil fondunun aradan qaldırılmasına və yerində müasir binaların tikintisinə start verilməlidir. Bank sektorunun tənzimlənməsi, sağlamlaşdırılması, şəffaflaşdırılması, beynəlxalq standartlara uyğunlaşdırılması daim diqqət mərkəzində olmalı, qeyri-neft sənaye istehsalının artırılmasına xüsusi önəm verilməlidir.

Keçən il kənd təsərrüfatının inkişafında uğurlu il olduğunu vurğulayan Prezident İlham Əliyev bu mühüm sahəyə bu il daha çox diqqət yetiriləcəyini bildirdi. Aydın oldu ki, pambıqçılıq, baramaçılıq, tütünçülük, fındıqçılıq və digər sahələr inkişaf etdirilməklə valyuta gətirən ixrac məhsullarının həcmi hər vasitə ilə artırılacaq. Bu il ən azı 120 min hektarda pambıq əkiləcəyini, təxminən 200 min ton, ondan da çox məhsulun tədarükünün gözlənildiyini bildirən dövlətimizin başçısı üzümçülüklə bağlı fikirlərini də bildirərək dedi: "Vaxtı ilə ulu öndərin dövründə, 1970-ci illərdə 2 milyon ton üzüm yığılırdı. Kəndlilər böyük vəsait əldə etmişdilər. Əfsuslar olsun ki, sonra həm sovet rəhbərliyi, həm də ki, sovet rəhbərliyinin xoşuna gəlmək istəyən yerli rəhbərlər üzüm bağlarının bir hissəsini qırmışlar. Ancaq biz indi bərpa edirik."

Sonra dövlət başçısı çayçılığın, heyvandarlığın və digər sahələrin də sürətlə inkişaf etdiriləcəyini, ümumiyyətlə kənd təsərrüfatı ilə bağlı məsələlərin daim diqqətdə olacağını vurğuladı. Əlavə etdi ki, torpaqlardan səmərəli istifadə etməklə ixracımızı şaxələndirməliyik, emal sənayesinin potensialından maksimum səmərəliliklə istifadə etməliyik.

Prezident İlham Əliyevin yekun nitqindən aydın oldu ki, qazlaşma Azərbaycanda 92 faizə çatsa da, hələ mindən çox kənddə qaz yoxdur. Bu il kənd yollarının tikintisi ilə bağlı 40 layihə həyata keçiriləcək, içməli su layihələrinin icrası davam edəcək, hərbi potensialımızın gücləndirilməsi istiqamətində əlavə tədbirlər görüləcək, sosial infrastruktur genişləndirilməklə yeni məktəblər tikiləcək.

Nitqinin sonunda Prezident İlham Əliyev 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan etdi.

2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan uzun əsrlərdən bəri islam sivilizasiyasının əsas mərkəzlərindən biri olmuşdur. O, islam dininin yayılmasında və eyni zamanda müsəlman intibahının bərqərar olmasında mühüm rol oynamışdır. Bütün bunlar Azərbaycan ərazisində ilk vaxtlardan islam dininin maddi və qeyri-maddi irsinin formalaşmasına zəmin yaratmışdır. 743-cü ildə tikilən Şamaxı Cümə məscidi və ölkəmizin muzeylərində saxlanılan qədim əlyazmalar bunun bariz nümunəsidir.

Dinlə bağlı sərt qadağaların mövcud olduğu sovet dövrü Azərbaycanında cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i ötüb keçmişdir. Həmin məscidlərin 300-dən çoxu tarixi-mədəni abidə kimi qorunur. Azərbaycan dövlətinin islam dini dəyərlərinə qayğısı sayəsində son illər ərzində islam mədəniyyətinin qiymətli abidələrindən Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidləri və Gəncə şəhərindəki "İmamzadə" kompleksi əsaslı şəkildə yenidən qurularaq təmir olunmuş, ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər məscidi inşa edilmişdir.

Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatının, ISESCO-nun, həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilərək islam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurmuş, qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumların təşkilatçısı kimi çıxış etmişdir.

Azərbaycan tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, islam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr vermişdir. Azərbaycanın islam aləmində qazandığı nüfuz 2009-cu ildə Bakı və 2018-ci ildə Naxçıvan şəhərlərinin "İslam mədəniyyətinin paytaxtı" elan olunmasında öz ifadəsini tapmışdır. IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi ilə bağlı qərar isə ölkəmizin islam həmrəylinin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaradır.

Aərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, islam həmrəyliyinin bərqərar olmasında Azərbaycanın özünəməxsus mövqeyinin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. 2017-ci il Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 10 yanvar 2017-ci il

20 Yanvar faciəsi qurbanlarının xatirəsi ehtiramla anıldı

Ötən əsrin sonlarında Mixail Qorbaçovun elan etdiyi yenidənqurma və aşkarlıq içimizdəki azadlıq eşqini yenidən közərtməyə, alovlandırmağa başladı. Həmin dövrdə nəhəng ölkənin əksər respublikalarında milli-azadlıq hərəkatlarının genişlənməsi də bununla bağlı idi. Hər tərəfdə Kremlin imperiya

siyasətinə qarşı etirazlar baş qaldırırdı. Gürcüstandakı, Baltikyanı respublikalardakı qanlı qırğınlardan sonra daha genişmiqyaslı qanlı aksiyanı həyata keçirməyi planlaşdıran Kreml bu dəfə hədəf kimi milli-azadlıq hərəkatının gündən-günə genişləndiyi Bakını seçmişdi. Bununla Moskva azadlıq, müstəqillik arzusu ilə yaşayan, mübarizə aparan digər xalqların, millətlərin də gözünü qorxutmaq, onların bu arzularını elə ürəklərindəcə boğmaq istəyirdi.

1990-ci il yanvarın 19-dan 20-nə keçən gecə heç bir xəbərdarlıq olunmadan qabaqcadan hazırlanmış xüsusi qoşun birləşmələrinin Bakıya yeridilməsi son dərəcə dəhşətli, ağlagəlməz faciələrə səbəb oldu. Heç bir günahı olmayan 100-dən çox insan xüsusi amansızlıqla qətlə yetirildi. Şəhərin mərkəzindəki əzilmiş maşınlara, gülləbaran edilmiş adamlara baxanda adama elə gəlirdi ki, burada iki qoşun üz-üzə dayanıb, küçə və meydanlarda qanlı döyüşlər gedib. Halbuki küçələrə çıxanlar, etirazlarını bildirənlər yalnız dinc insanlar idi, onlar öz azadlıqlarını istəyirdilər. Müstəqillik arzusu ilə alışıb yanan bu insanlar özlərini tankların, BTR-lərin altına atmaqdan belə çəkinmirdilər. Belə qəhrəmanlıq, yenilməzlik hər millətdə ola bilməzdi. Amma Azərbaycan xalqı bunu etməyi bacarmışdı. Moskvanı dəhşətə gətirən, dünyanı heyrətə salan da xalqımızdakı bu yenilməzlik idi.

Amma çox təəssüf ki, dünya ictimaiyyəti baş verənlərdən çox gec xəbər tutdu. Televiziya, radio susdurulduğundan səsimizi heç yerə çatdıra bilmədik. Məhz belə ağır, tələtümlü vaxtda möhtərəm Heydər Əliyev həyatının təhlükədə olmasına baxmayaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək əsl həqiqəti dünyaya bəyan etməyi bacardı. Xalqını, millətini ürəkdən sevmədən, onun yolunda ölməyə hazır olmadan bunu etmək mümkün deyildi. Bu da bir qəhrəmanlıq, fədakarlıq idi.

Aradan uzun illərin keçməsinə baxmayaraq xalq uğrunda fədakarlıq göstərənləri, lazım gələndə ölməyi bacaranları heç vaxt unutmur, onları həmişə böyük minnətdarlıq hissilə yad edir. Bunu faciənin ildönümü günündə — yanvarın 20-də bir daha əyani şəkildə gördük. Həmin gün Bakının "Şəhidlər Xiyabını"na gedən yol yenə insan selinə qərq olmuşdu. Buraya axın edən insanların çöhrəsində kədər olsa da, ürəkləri qürurla döyünürdü.

Yanvarın 20-də Prezident İlham Əliyev igid Vətən övladlarının uyuduğu "Şəhidlər Xiyabanı"na gələrək Azərbaycanın müstəqilliyi, azadlığı üçün canlarından keçən mərd mübarizlərin xatirəsinə dərin hörmət və ehtiramını bildirdi. Abidə önünə dövlət başçısı adından əklil qoyuldu. Mərasimdə iştirak edənlər buraya tər çiçəklər düzdülər.

Həmin gün rayonumuzda Yanvar faciəsi zamanı həlak olan neftçalalı şəhidlərin şərəfinə ucaldılmış abidənin önündə də izdiham yaşanırdı. O dəhşətli günlərdə Neftçala da öz şəhidlərini vermişdi. Həmyerlilərimiz Əbülfəz Cəfərov, Şəmsəddin Orucov, Nurəddin Ağahüseynov gözlərini yumaraq həyatla əbədi vidalaşmışdılar. Onları yad etmək üçün abidə önünə toplaşanların çöhrəsində də kədər qarışıq qürur hissi vardı. Rayonumuzun sakinləri haqlı olaraq öz yurdsevər övladları ilə fəxr edirdilər.

Saat 10-da rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, rayonun rəhbər işçiləri də buraya gəldilər. Abidə önünə toplaşanlar rayon rəhbərini səmimiyyətlə salamladılar. Şəhidlərin ruhuna dualar oxunub fatihə verildikdən sonra ilk olaraq rayon icra hakimiyyəti adından abidə önünə əklil qoyuldu. İdarə və müəssisələrin kollektivləri, rayon sakinləri buraya tər çiçəklər düzdülər.

Sonra rayon rəhbəri və mərasim iştirakçıları şəhidlərin uyuduqları məkana, şəhər qəbristanlığına gəldildər. Burada təkcə Yanvar şəhidlərinin deyil, Vətənimizin azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərin, ötən ilin aprel döyüşlərində Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Samid İmanovun məzarları da ziyarət olundu, onların abidələri önünə tər çiçəklər düzüldü.

* * *

20 Yanvar faciəsinin 27-ci ildönümü ilə əlaqədar rayon icra hakimiyyətində şəhid ailələri və Yanvar əlilləri qəbul edilmişdir. Rayon rəhbəri onlarla səmimi söhbət etmiş, qayğı və problemləri ilə maraqlanmışdır. Sonda şəhid ailələrinə və Yanvar əlillərinə maddi yardımlar olunmuşdur.

* * *

Faciənin ildönümü ilə əlaqədar Neftçala şəhərində, Bankə qəsəbəsində, rayonun ayrı-ayrı inzibati ərazilərində, məktəblərdə, mədəniyyət obyektlərində, uşaq tərbiyə müəssisələrində və digər yerlərdə şəhidlərimiz ehtiramla yad olunmuşdur. 20 Yanvar faciəsinin 27-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə təsdiqlənmiş tədbirlər planından irəli gələn vəzifələr rayonumuzda da ardıcıllıqla yerinə yetirilmişdir.

Şəhidlərimiz

O müdhiş 20 yanvar gecəsində Neftçala da qəfil xəbərdən sarsıldı, diksindi. Heç bir günahı olmayan həmyerlimiz Şəmsəddin Orucov Bakı şəhərində düşmənin atdığı naqafil güllə nəticəsində öz evində, övladlarının, ailəsinin gözləri qarşısında qətlə yetirildi.

Əbülfəz Cəfərov

Bu azmış kimi bir neçə gün sonra respublikanın ayrı-ayrı bölgələrində, o cümlədən Neftçalada da qanlı olaylar baş verdi. Burada da əliyalın, dinc insanlar gözlərini qan örtmüş sovet əsgərlərinin avtomat silahları ilə, süngülərilə üz-üzə qaldılar. Öz kasıbkarlığı ilə məşğul olan Nurəddin Ağahüseynov elə yerindəcə güllələndi. Qəfil hücum nəticəsində insanlar yaralandılar, işgəncələrə, söyüşlərə, təhqirlərə məruz qaldılar. Minlərlə insan qəfil açılan atəşlərdən, işıq saçan güllə yağışından, əsgərlərin vəhşi hərəkətlərindən stress, əsəb gərginliyi keçirərək sağalmayan xəstəliklərə düçar oldu. Həbsxanaya aparılarkən ağlagəlməz mənəvi və fiziki işgəncələrə məruz qalan Əbülfəz Cəfərov dilində "Vətən", "Azərbaycan" sözlərilə gözlərini əbədi yumaraq əbədiyyətə qovuşdu.

Şəmsəddin Orucov

Nə qədər ağrı-acılı olsa da, bütün bunlar bizim tariximizdir. Onları unutmağa, yaddan çıxarmağa haqqımız yoxdur. Şəhərin Heydər Əliyev prospekti ilə 20 Yanvar küçəsinin kəsişdiyi yerdəki çoxmərtəbəli yaşayış binasına vurulan xatirə lövhəsində yazılan "25 yanvar 1990-cı ildə bu yerlər işğalçı imperiya ordusu tərəfindən gülləbaran edilmiş və günahsız həmyerlilərimiz qətlə yetirilmişdir" sözləri o dəhşətli günləri yenidən xatırladır bizə. Binanın günçıxan tərəfindəki divarda qalan güllə yerləri bunu bir daha təsdiqləyir. Bir qədər aşağıdakı kompleks də 1990-cı ilin yanvarında əbədiyyətə qovuşmuş neftçalalı şəhidlərin şərəfinə qurulub, onların xatirəsini əbədiləşdirir özündə. Hacı İmamverdi Əbilovun "Şəhidlər məhrabı, rəhmət duası", İdris Şükürlünün "Ölsəm inanma", Soltan Abbasın "Ömrün şəhidlik zirvəsi" kitabları, yazılan çoxlu sayda məqalələr, çəkilən rəsm əsərləri və digər sənət əsərləri qan yaddaşımızı özündə yaşadan əbədi nümunələrdir.



Nurəddin Ağahüseynov

Ölkəmizi azad, müstəqil görmək ən böyük, ən müqəddəs arzunuz, amalınız idi, əziz şəhidlər. Heç nədən çəkinmədən şirin canınızı da bu müqəddəs amal uğrunda qurban verdiniz. Qarabağımızın azad olunacağı günə də çox qalmayıb. Bunu da Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında qəhrəman ordumuz, igid əsgərlərimiz edəcəklər. Yəqin onda Sizin də narahat ruhlarınız şad olacaq, əziz şəhidlər!

Ədəbi-bədii kompozisiya

Faciə qurbanlarının əziz xatirəsinə həsr olunmuş daha bir tədbir rayon Dövlət rəsm qalereyasında təşkil edilmişdi. 20 Yanvar şəhidi Ülvi Bünyadzadənin "Həyat üçün doğulmuşuq, Vətən üçün ölməliyik" şeirinin adını daşıyan, Xalq şairi Bəxtiyar Vahabzadənin "Şəhidlər" poeması əsasında səhnələşdirilən ədəbi-bədii kompozisiya maraqla qarşılandı.

Onu da deyək ki, qalereya ilk nəzərdən 20 Yanvarı yaşadırdı özündə. Məktəblilərin həmin hadisələri əks etdirən rəsmləri, bu hadisələrə uyğun qurulmuş səhnə, səsləndirilən musiqi və digər nümunələr xəyalları bir anlıq da olsa o dəhşətli günlərə aparırdı.

Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri ilə birlikdə rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, rayonun rəhbər işçiləri və digər məsul şəxslər də iştirak edirdilər.

Əvvəlcə Yanvar şəhidlərinin, torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda canlarını qurban verən həmyerlilərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Ayrı-ayrı səhnələri canlandıran şəhər 1 saylı tam orta məktəbi şagirdlərinin aktyorluq məharətləri tamaşaçıları razı saldı. Əvvəlcə onlar səhnədə quraşdırılmış "20 Yanvar abidəsi"nin önünə qərənfillər düzdülər. Aparıcı Pərvin Həşimovun poemadan söylədiyi parçaları

həyəcansız dinləmək olmurdu. Şəhid İlhamla Fərizənin bir-birlərinə olan sonsuz sədaqətini əks etdirən səhnə xüsusilə unudulmaz idi. Məktəbli aktyorlar bu səhnələri məharətlə canlandırdıqlarından ürəklər kövrək hisslərlə doldu. Bu hisslər, eyni zamanda düşmənə nifrət hissini artırır, tamaşaçıları daim sayıq olmağa çağırırdı.

İnzibati ərazi dairələri üzrə nümayəndəliklərdə hesabat yığıncaqları tam demokratik şəraitdə keçir

Hər dəfə il başa çatanda ayrı-ayrı idarə və müəssisələrin kollektivləri, rəhbərləri bir daha dönüb geriyə baxır, görülən işləri, həyata keçirilən tədbirləri nəzərdən keçirməklə yanaşı, qarşıda duran işləri də hərtərəfli təhlil edir, yeni vəzifələrini müəyyənləşdirirlər. İdarəetmənin ilkin mərhələsi hesab edilən inzibati ərazi dairələri üzrə nümayəndəliklərdə də belədir. Prezident İlham Əliyevin fərman və sərəncamlarından irəli gələn təxirəsalınmaz vəzifələri, Nazirlər Kabinetinin və digər yuxarı orqanların qərarlarının, mühüm dövlət sənədlərinin mahiyyətini yerlərdəki insanlara bilavasitə bu nümayəndəliklərdə çalışan şəxslər çatdırır, aydınlaşdırır, adamları qarşıya qoyulan vəzifələrə səfərbər edirlər. Buna görə nümayəndəliklər təkcə özləri təhlillər aparmaqla kifayətlənmirlər, həm də gördükləri işlər, həyata keçirdikləri tədbirlər barədə inzibati ərazilərdəki insanlara geniş hesabat verir, onların təkliflərini, tənqidi qeydlərini dinləyirlər. Bütün bunlar isə işin xeyrinədir. İnzibati ərazi nümayəndəlikləri növbəti il üçün, gələcək üçün vəzifələrini müəyyənləşdirəndə, görüləcək işlərin planını tərtib edəndə vətəndaşların irəli sürdükləri dəyərli təkliflər, tənqidi qeydlər də diqqətlə nəzərə alınır.

Əvvəlki illərdə olduğu kimi inzibati ərazi nümayəndəliklərindəki bu ilki hesabat yığıncaqları da tam demokratik, aşkarlıq şəraitində keçir. Həmin yığıncaqlarda iştirak edən sakinlər yenə də öz fikirlərini açıq şəkildə sərbəst ifadə edə bilirlər. Belə yığıncaqlarda rayon icra hakimiyyəti başçısının, başçı yanında fəaliyət göstərən şura üzvlərinin, rayonun rəhbər işçilərinin iştirak etməsi böyük önəm daşıyır. Rayon rəhbərliyinin vəziyyətlə bilavasitə yerində tanış olması, tənqidi fikirləri dinləməsi gələcəkdə buradakı nöqsan və çatışmazlıqların, əhalini narahat edən problemlərin aradan qaldırılmasında, şübhəsiz ki, təsirsiz qalmayacaq.

Xolqarabucaq kəndi rayonumuzun ən böyük yaşayış məntəqələrindəndir. Son illər bu inzibati ərazidə də az iş görülməmişdir. Xalqarabucaq kənd mədəniyyət evində keçirilən növbəti hesabat yığıncağında da bu məsələlərdən danışılacaqdı, adamları narahat edən problemlər dilə gətiriləcəkdi. Toplantıya gələnlərin sayının çox olması da bununla bağlı idi. Salona toplaşanlar rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevi, onunla birlikdə gələn qonaqları səmimiyyətlə salamladılar.

Əvvəlcə Xolqarabucaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Aydın Səmədov ərazinin inzibati quruluşu, əhalinin, təsərrüfatların sayı barədə geniş məlumat verdi. Aydın oldu ki, 3 kəndi əhatə edən inzibati ərazidə əhalinin sayı 4 min nəfərdən artıqdır. 888 təsərrüfatda birləşən insanlar öz həyətyanı sahələrində, pay torpaqlarında, digər sahələrdə çalışaraq dolanışıqlarını təmin edirlər. Bələdiyyə, iki tam və bir ümumi orta məktəb, uşaq bağçası, folklor evi, iki klub, üç kitabxana, ATS, poçt və başqa xidmət obyektləri ərazinin ümumi sosial mənzərəsidir. 3 kilometrdən artıq kənddaxili yolda təmir-bərpa işlərinin həyata keçirilməsi, suötürücü boruların, ayrı-ayrı kanalların ildən təmizlənməsi və digər tədbirlərin həyata keçirilməsi, yaşıllıqların genişləndirilməsi əhali tərəfindən razılıq hissilə qarşılanır. Ərazidəki 3 sudan istifadə birlikləri həyətyanı sahələrin, fermer təsərrüfatlarının suya olan tələbatlarının ödənilməsi üçün səylə çalışırlar. Ötən il ərazidə 189 hektar sahədən 416 tondan çox pambıq toplanmışdır. İribuynuzlu mal-qaranın sayı 5800-ü, qoyun və keçilərin sayı 14350-ni, quşların sayı isə 20530-u ötmüşdür.

Ərazi nümayəndəsi Aydın Səmədov digər məsələlərə də geniş aydınlıq gətirdi. Məlum oldu ki, vətəndaşların müraciətlərinə daim həssaslıqla yanaşılmışdır. Onlarla əlaqəni gücləndirmək məqsədilə hesabat dövründə burada 16 yığıncaq, məhəllə ağsaqqalları ilə 17 görüş keçirilib. Qaldırılan məsələlərin müsbət həlli üçün kənd ziyalılarının, ağsaqqalların, fəalların, ayrı-ayrı idarə və təşkilatların köməyindən istifadə olunmuşdur.

Məruzənin sonunda kənd əhalisinə göstərdiyi qayğı və diqqətə görə Prezident İlham Əliyevə, rayon rəhbərliyinə səmimi minnətdarlığını bildirən nümayəndə Aydın Səmədov rayonun Xol ərazisini əkin suyu ilə təmin edəcək Neftçala Magistral Kanalının tikintisindəki canlanmanı xüsusi vurğuladı? Bütün əhali adından xahiş etdi ki, obyektdə işlər cari ildə də sürətlə davam etdirilsin. Belə olsa Xol ərazisində daha çox pambıq, taxıl, yem və digər kənd təsərrüfatı məhsulları istehsal etmək olar.

Havanın çox soyuq, şaxtalı olmasına baxmayaraq salona toplaşan kənd sakinləri də ürək sözlərini bildirdilər, onları narahat edən çətinlik və problemləri dilə gətirdilər. Rayon rəhbəri Xubəli Şahbazovun, Arzu Abıyevanın, Məzahim Səmədovun və başqa kənd sakinlərinin fikirlərini diqqətlə dinlədi, qaldırılan məsələlərlə bağlı konkret tapşırıqlarını verdi.



İnzibati ərazi dairələri üzrə nümayəndəliklərdə ilin əvvəlindən başlanmış hesabat yığıncaqları artıq başa çatmaq üzrədir. Boyat, Aşağı Qaramanlı, Tatarməhlə, Kürkənd, Xolqarabucaq, Xəzər, Qırmızıkənd, Cəngən, Yuxarı Qaramanlı kənd, Bankə, Xıllı qəsəbə inzibati ərazilərində toplantılar işgüzar şəraitdə keçmişdir. Demokratik qaydalara hərtərəfli əməl olunduğundan adamlar da öz fikirlərini açıq şəkildə bildirmiş, təkliflərini irəli sürmüş, onları narahat edən çətinlik və problemləri diqqətə çatdırmışlar. Yığıncaqlarda iştirak edən rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyev, başçının birinci müavini Vurğun Əkbərov, başçının müavini Gültəkin xanım Sadıqova, başçı yanında fəaliyyət göstərən şuranın üzvləri Anar Cəfərov, Rəşid Manafov, Telman Zahidov, Ədalət Hüseynov, Əjdər Kərimov, Vüqar Nağıyev, aparatın məsul işçiləri yola saldığımız ildə ölkəmizdə və rayonumuzda görülmüş işlərdən, həyata keçirilən tədbirlərdən danışmış, qarşıda duran vəzifələrə geniş aydınlıq gətirmişlər. Vurğulanmışdır ki, qazandığımız uğurlar ulu öndər Heydər Əliyev tərəfindən başlanmış işıqlı yolun möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsinin, yeni islahatlar kursunun dönmədən həyata keçirilməsinin bəhrəsidir.

Ad gününüz mübarək!

Fevralın 3-ü rayonumuzun deputatı, Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri hörmətli Arif Qafar oğlu Rəhimzadənin doğum günüdür

Əziz və hörmətli Arif müəllim!

Uzun illərdir ki, Siz Milli Məclisdə deputat kimi rayonumuzu layiqincə, əsl neftçalalı təəssübkeşliyi ilə təmsil edirsiniz. Ötən bu illər ölkəmizin müstəqilliyinin yenidən bərpasından keçən şanlı-şöhrətli tarixinə bərabərdir. Elə buna görə də bir yazımızda biz Sizi "Müstəqillik illərimizin deputatı" adlandırmışdıq.

Bu illər ərzində Milli Məclisdə çoxlu deputatlar görmüşük, hətta bir çağırış seçilərək sonra gözdən itənlər də az olmayıb. Amma Arif Qafar oğlu Rəhimzadə adı və soyadı Ali Sovetin və Milli Məclisin tarixinə silinməz xətlə yazılıb.

Sizi bir çoxlarından fərqləndirən odur ki, bu adı Azərbaycanda uşaqdan tutmuş böyüyə kimi hamı tanıyır. Sizi müstəqilliyimizin ilk, qarışıq illərində Milli Məclisdə haqqın, ədalətin müdafiəçilərindən biri kimi görmüşük. Həmin illərdə ulu öndər Heydər Əliyevə qarşı səslənən ədalətsiz, qərəzli hücumlara təkbaşına, əsl kişi qeyrəti, dəyanəti ilə cavab vermisiniz, halbuki o zaman təhlükəsizliyinizə heç bir zəmanət yox idi. Siz Azərbaycanın nicat yolunu yalnız Heydər Əliyev şəxsiyyətində görürdünüz və zaman Sizin bu uzaqgörənliyinizi, haqlı olduğunuzu tezliklə açıb göstərdi, təsdiqlədi.

Açıq deyək ki, ötən bu illər ərzində heç də bütün bölgələrin deputat sarıdan "bəxti gətirmədi". Xalqın etimadını doğrultmayanlar da, seçiciləri ilə öz arasında "Çin səddi" yaradanlar da oldu. Amma Siz ilk gündən yağışa, qara baxmayaraq ən ucqar kəndlərdə belə seçicilərinizlə görüşdünüz, onları dinləməyi bacardınız. Bir sözlə, Neftçalanın, neftçalalıların deputat sarıdan doğrudan da bəxti gətirdi.



Siz Neftçalanı sevdiniz, Neftçala da Sizi sevdi, Sizi heç bir namizədə dəyişmədi. Əhalimiz öz seçimində yanılmadı. Şəxsiyyətinizə, müsbət keyfiyyətlərinizə yüksək dəyər verdi. Elə şəxsiyyətlərdənsiniz ki, istənilən nazir, məmur, iş adamı Sizinlə həmişə hörmətlə davranır, sözünüz eşidilir, dinlənilir. Elə buna görə seçicilərinizin müraciətlərini, narahatlıq doğuran problemləri onlara ürəklə çatdıra bilirsiniz və əksəriyyəti də müsbət həll olunur. Etiraf edək ki, bunu hər kəs bacarmır. Bunu yalnız xalqın, millətin içində xüsusi çəkisi, yeri, hörməti və nüfuzu olan şəxsiyyətlər bacarırlar. Deputatlıq dövrünüzün ilk illərində biz mətbuat işçiləri də bunun canlı şahidi olmuşuq. O zaman mətbəəmizdə ciddi kağız qıtlığı yaranmışdı, böyük narahatlıq keçirirdik, amma Sizin bircə zənginiz bu problemi asanlıqla həll etdi və bu gün də etməkdədir.

Çox hörmətli Arif müəllim! Özünüzü neftçalalı adlandırınız, biz də Sizi bir neftçalalı kimi qəbul etdik, əlinizi sıxdıq, özümüzə doğma, yaxın bildik. Elə bilirik həmişə də belə olacaq. Sizi — dəyanətli neftçalalını, çox hörmətli millət vəkilimizi doğum gününüz münasibətilə ürəkdən, səmimi qəlbdən təbrik edirik. Sizə uzun ömür, can sığlığı və gərgin işlərinizdə yeni-yeni uğurlar arzulayırıq.

Hörmətlə:
Sizi sevən "GÜNDOĞAR" qəzetinin kollektivi

Gənclər ordu sıralarına yollanırlar

VƏTƏNƏ XİDMƏT BÖYÜK ŞƏRƏFDİR

Şöbəmizin adından da göründüyü kimi əsas işimiz, fəaliyyətimiz neftçalalı gəncləri əsgəri xidmətə səfərbər etmək, ordumuzun yeni qüvvələr hesabına komplektləşdirilməsinə yardımçı olmaqdır. Çalışırıq və bundan sonra da çalışacağıq ki, üzərimizə düşən vəzifələrin öhdəsindən layiqincə gələk. Yola saldığımız ötən ildə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev ölkə vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması barədə dörd sərəncam imzalamışdır. Şöbəmiz öz fəaliyyətini məhz bu ali sənədlərdən irəli gələn təxirəsalınmaz vəzifələr və respublika Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidmətinin qarşımıza qoyduğu plan və tapşırıqların icrası əsasında qurmuşdur.

Onu da deyim ki, ordu həyatı böyük bir məktəbdir. Bu həyata daxil olan gənc hər cəhətdən hazırlıqlı olmalıdır. Buna görə də gəncləri ordu sıralarına yola salmamışdan qabaq onlarla hərtərəfli iş aparırıq. Bununla əlaqədar şöbəmizdə maraqlı tədbirlər təşkil olunur. Apardığımız söhbətlər zamanı ordumuzun keçdiyi yollar barədə çağırışçı gənclərə ətraflı məlumat veririk. Bildiririk ki, müstəqilliyimiz dövründə ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan Milli Ordumuz sonrakı illərdə dövlətimizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin böyük səyləri sayəsində inkişaf etdirilərək bu günkü yüksək səviyyəsinə gəlib çatmışdır. Bu gün Qafqazın ən güclü, modern silahlı qüvvələrindən sayılan ordumuz indi hər hansı təcavüzün qarşısını almağa qadirdir.

Odlu-alovlu cəbhələrdən keçmiş Böyük Vətən müharibəsi və Qarabağ müharibəsi veteranları ilə keçirilən görüşlər onlar üçün xüsusilə unudulmazdır. Gənclər veteranların cəbhə xatirələrini həmişə böyük maraqla dinləyirlər. Çox vaxt da çağırışçı gəncləri ordu sıralarına belə ağsaqqal veteranların və döyüş yolu keçən şəxslərin xeyir-duası ilə yola salırıq. Cavanlar da ata və babaların şanlı-şöhrətli, qəhrəmanlıqlarla dolu döyüş yollarına sadiq qalacaqlarına and içirlər.

Ümumtəhsil müəssisələrindəki ibtidai hərbi hazırlıq dərsləri bizim dayaq nöqtələrimizdir. Sabahın əsgərləri məhz burada yetişir, ordunun ilkin qayda-qanunlarına məhz burada yiyələnirlər. Elə buna görə bütün il boyu məktəblərlə, ibtidai hərbi hazırlıq dərslərini tədris edən müəllimlərlə əlaqələrimizi yüksək səviyyədə qurmağa çalışmışıq və bundan sonra da belə edəcəyik. Keçirilən "Şahin" hərbi idman oyunları yeniyetmə gənclərin bu sahədəki bilik və bacarıqlarını, qabiliyyətlərini əyani şəkildə nümayiş etdirdiyindən biz bu tədbirlərin keçirilməsində həmişə fəal iştirak etmişik. Yarışlar zamanı şagirdlərin qazandıqları uğurlar bizi də ürəkdən sevindirib. İnanmışıq ki, onlar ordu sıralarında daha böyük uğurlara imza atacaq, yüksək xidmət və döyüş nümunələrilə də fərqlənəcəklər.

Bizim üçün böyük fəxrdir ki, elə fərqləniblər də. Yola saldığımız il ölkəmizin hərb tarixinə qızıl hərflərlə yazıldı. Həmin ilin aprelində düşmən təxribatının qarşısının alınmasındakı qısamüddətli döyüş silahlı qüvvələrimizin nəyə qadir olduğunu əyani şəkildə göstərdi. Ordumuzun güclü hücumu qarşısında sarsılan ermənilər nəinki tab gətirə bilmədilər, əksinə, işğal etdikləri ərazilərin bir hissəsini də qoyaraq qaçmağa məcbur oldular. Bu qanlı döyüşlərdə həmyerlilərimiz Samid Gülağa oğlu İmanovun və Elimdar Səlimxan oğlu Səfərovun göstərdikləri igidlik nümunələri unudulmazdır. Elə bir nümunələrdir ki, onlar zaman-zaman xatırlanacaq, sonrakı nəsilləri də daim mübariz olmağa, qələbələr qazanmağa səsləyəcəkdir. Dövlətimizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin sərəncamı ilə Samid Gülağa oğlu İmanovun Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülməsi bütün rayonumuz üçün böyük fəxrdir. Elimdar Səlimxan oğlu Səfərov isə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olundu. İndi onlar aramızda olmasalar da, qəhrəmanlıq nümunələri, Vətən sevgiləri yaşayır. Biz onları həmişə böyük məhəbbətlə, ehtiramla xatırlayacağıq. İgid el oğullarımızın uyuduqları məzarlar hər bir neftçalalının, xüsusilə gənclərimizin müqəddəs ziyarət yerinə çevrilib. Onların döyüş nümunələri, Vətənə olan sonsuz sədaqətləri neçə-neçə neftçalalı gənci də qəhrəmanlığa səsləyəcəkdir.

Turan ƏLİYEV,
SHXÇDX rayon şöbəsinin rəisi

Artıq yeni ilə qədəm qoymuşuq. İlin ilk ayı başa çatmaq üzrədir. Yanvar ayı həm də gənclərin ordu sıralarına növbəti çağırışı ilə də yadda qalır. Bununla əlaqədar dövlətimizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyev növbəti sərəncamını imzalamışdı. Həmin sərəncamın icrası ilə əlaqədar şöbəmizin əməkdaşları səylə çalışmışlar. Əvvəlki illərdən fərqli olaraq indi gənclər əsgəri xidmətə daha böyük həvəslə, daha böyük ruh yüksəkliyilə yollanırlar. Onlarda Vətən eşqi yüksəkdir. Hamısı torpaqlarımızı azad etmək, yağı düşməni ərazilərimizdən qovub çıxarmaq arzusu ilə yaşayır. İnanırıq ki, bu belə də olacaq. Dövlətimizin, dövlət başçımızın qayğı və diqqəti sayəsində yenilməz qüvvəyə çevrilən şanlı-şöhrətli ordumuz gec-tez öz sözünü deyəcəkdir.

Yeni il, yeni vəzifələr: MELİORATORLAR NİKBİNDİRLƏR

Son illərdə dünyanı bürüyən iqtisadi böhranın, maliyyə çətinliklərinin, ABŞ dollarının məzənnəsinin qalxması, möhkəmlənməsi fonunda digər valyutaların, o cümlədən manatın dəyərini itirməsinin fəsadları göz qabağındadır. Bu səbəbdən ayrı-ayrı idarə və müəssisələrdəki ritm, ahəngdarlıq da pozulub. Bir çox müəssisələr daha əvvəlki məhsuldarlıqla işləyə bilmirlər. Çətinliklər, çatışmazlıqlar onların da işini ləngidir. Amma vəziyyətdən çıxmağı, çətinlikləri yoluna qoymağı bacaranlar da var. Rayon suvarma sistemləri idarəsində görülənlər, kollektivin ötən ildəki uğurları bunu əyani şəkildə göstərir. Son beş-altı ildə bu idarədə bəlkə də on illərin işi görülüb. Vaxtı ilə buraları görənlər indi onu tanıya bilmirlər. Gözlərimizin qarşısında dəyişərək aydan-aya, ildən-ilə inkişaf edən, müasirləşən idarə indi rayonumuzun ən abad, səliqə-sahmanlı müəssisələrindəndir.

Belə dirilik, işgüzarlıq o vaxt olur ki, orada birlik olsun. Suvarma sistemləri idarəsində bu birlik var. İdarənin rəisi Elçin Əsədov bacarıqlı mühəndis olmaqla yanaşı, yaxşı təşkilatçı, səmimi insan, məsuliyyətli müəssisə rəhbəridir. İdarədə elə bir sahə yoxdur ki, orada bir yenilik, təzəlik olmasın. Bu yeniliyi, təzəliyi inzibati idarə binasından tutmuş, ayrı-ayrı sahələrə kimi hər yerdə görmək mümkündür. Son beş ildə 26 nasos-stansiyanın tamamilə yenidən qurularaq müasirləşdirilməsi buna əyani misaldır. Axşamlar havanın qaranlığında başdan-başa neon lampalarının işığına bürünmüş bu nasos-stansiyalar xüsusilə gözəl və yaraşıqlı görünür. Əlbəttə, bütün bunların hamısı Elçin müəllimin rəhbərliyi altında, bilavasitə onun iştirakı ilə həyata keçirilib. Elçin müəllimdə yenilik həvəsi, qurmaq, yaratmaq sevgisi olmasaydı, yəqin ki, bütün bunları həyata keçirmək mümkün olmazdı.

İdarə kollektivinin başlıca vəzifəsi rayonun ərazilərindəki əkin sahələrini su ilə təmin etməkdir. Suvarmanı həyata keçirmədən bol məhsuldan söhbət gedə bilməz. Bunu idarənin melioratorları da çox yaxşı bilirlər. Elmlə, biliklə yanaşı ötən illərin təcrübəsi onlara çox şey öyrədib. Buna görə melioratorlar öz işlərinə, vəzifələrinə həmişə böyük məsuliyyətlə yanaşırlar. Çalışırlar ki, öhdələrindəki nasos aqreqatlarının, hidrotexniki qurğuların və digər texnika vasitələrinin gücündən maksimum səmərəliliklə istifadə etməklə əkin sahələrinin suya olan tələbatlarını ödəsinlər, fermerləri, torpaq mülkiyyətçilərini razı salsınlar.

Elçin Əsədovun sözlərindən aydın oldu ki, ötən il rayonda 38158 hektar sahədə taxıl, 1541 hektar sahədə pambıq, 14095 hektar sahədə yonca, 265 hektar sahədə bostan-tərəvəz məhsulları yetişdirilmişdir. Bununla yanaşı vətəndaşlara məxsus 1400 hektardan artıq həyətyanı sahələrinin suya olan tələbatlarını da idarənin melioratorları həyata keçirmişlər. Bunun üçün idarənin balansında olan 42 nasos-stansiyanın, 1369 hidrotexniki qurğunun gücündən maksimum səmərəliliklə istifadə olunmuşdur. İl ərzində nasos aqreqatları vasitəsilə Kür çayından 250,4 milyon kubmetr su qaldırılaraq 9 kilometr uzunluğundakı suvarma kanalları vasitəsilə əkin sahələrinə ötürülmüşdür. Bu müddətdə 552,8 kilometr kanalın ildən təmizlənməsi, 74 hidrotexniki qurğunun, 28 nasos aqreqatının, 12 elektrik mühərrikinin əsaslı təmir olunaraq qaydaya salınması və digər tədbirlərin həyata keçirilməsi suvarmanın intensivliyinə öz müsbət təsirini göstərmişdir.

Pambıq əkinlərinin genişləndirilməsi, bununla əlaqədar yeni torpaq sahələrinin istifadəyə verilməsi, şübhəsiz, əkin suyuna olan tələbatı da xeyli dərəcədə artırmışdır. Bunu idarədə də yaxşı bilirlər. Müəssisənin rəhbəri Elçin Əsədov dedi:

— Ötən il rayonumuzda 1541 hektar sahədə pambıq əkilmişdisə, bu il həmin rəqəmin 10 min hektardan çox olacağı gözlənilir. Deməli, bizim də qayğılarımız qat-qat artacaq. Həm də pambıq digər bitkilərdən fərqli olaraq suya daha tələbatlıdır. Ona görə işimizi indidən elə qurmağa çalışırıq ki, sabah çətin vəziyyətdə qalmayaq. Bütün nasos-stansiyalarımızı, hidrotexniki qurğularımızı, elektrik avadanlıqlarını, maşın və mexanizmləri diqqətlə nəzərdən keçirərək, necə deyərlər, safçürük etmişik. İndi təmirçilərimiz qüsurları aradan qaldırmaqla, lazımi hissələri yenilərilə əvəz etməklə onları saz vəziyyətə gətirirlər.

Rayonumuzun Xol zonasını bol əkin suyu ilə təmin edəcək Neftçala Magistral Kanalının tikintisində ötən il işlərin xeyli dərəcədə canlandırılması Elçin müəllimi də ürəkdən sevindirmişdi. O dedi:

— Son bir neçə ildə kanalın tikintisində işlərin ləngiməsi bizi də ciddi narahat edirdi. Bu çox mühüm obyektdir. Kanal istifadəyə verildikdən sonra Xol zonasında 17000 hektardan çox ərazini əkin suyu ilə təmin etmək mümkün olacaqdır. Bununla yanaşı Aşağı Surra və Aşağı Qaramanlı inzibati ərazilərində fəaliyyət göstərən torpaq mülkiyyətçiləri də bu kanalın bol suyundan bəhrələnəcəklər. Burada çətin suvarılan və yaxud suvarılması mümkün olmayan 2600 hektar sahəyə də su çıxarılacaqdır. Tikintisinə 2006-cı ildən başlanmış Neftçala Magistral Kanalının ümumi uzunluğu 25 kilometrdir. Həmin kanalla saniyədə 15 kubmetr su ötürmək mümkün olacaqdır. Əvvəllər burada işlər pis getmirdi. Sonrakı illərdə iqtisadi böhran səbəbindən işlər nisbətən ləngisə də, ötən il yenidən canlanma yarandı. Əgər 75 milyon manat dəyərində olan bu obyektdə 2006-cı ildən 2016-cı ilə kimi cəmi 15 milyon manat tikinti-quraşdırma işləri görülmüşdüsə, ötən ildə də o qədər iş görüldü. Tikintini həyata keçirən "Muğansutikinti" ASC-nin 4 səyyar mexanikləşdirilmiş dəstəsinin obyektin tikintisinə cəlb olunması da bununla əlaqədar idi. Birgə səy öz bəhrəsini verdi. Artıq kanalın 12 kilometrə yaxın hissəsi çəkilib. İnanırıq ki, obyektdə işlər bu il də sürətlə davam etdiriləcək. Kanalın Xol ərazisindəki "Ləzgi" kanalına çatdırılması ehtimalı böyükdür. Əgər bu mümkün olsa Xol ərazisinin arxa hissələrini suvarmaq mümkün olacaqdır.

Kanalın istifadəyə veriləcəyi gün Xol zonasında əsl toy-bayrama çevriləcəkdir. O günü böyük intizarla, səbirsizliklə gözləyən insanlar göstərdiyi köməyə, qayğıya və diqqətə görə dövlətimizin başçısı cənab İlham Əliyevə özlərinin dərin minnətdarlıqlarını bildirirlər. Hörmətli deputatımız, Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri Arif Rəhimzadə, rayonumuzun rəhbərliyi də kanalın tikintisinin reallaşması üçün böyük əmək sərf etmişlər. Yeri gəlmişkən deyim ki, son bir neçə ildə idarəmizə gətirdiyimiz yeni müasir maşın və mexanizmlərin alınmasında da Arif müəllimin zəhməti az olmayıb. İndi bu mexanizmlərlə təkcə öz işlərimizi görmürük, eyni zamanda rayonun abadlıq, təmizlik işlərində də fəal iştirak edirik.

Müəyyən çətinliklərə, problemlərə baxmayaraq melioratorlar nikbindirlər. Sabaha yeni ümidlərlə baxırlar. İnanırlar ki, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən geniş islahatlar kursu öz bəhrəsini verəcək. Kəndlərimizə, elimizə, obamıza su kimi aydınlıq gələcək. Elə Siz də həmişə aydınlıq içində olasınız, əziz melioratorlar.

H.ƏSƏDOV

Kəndimizin qayğıları: SURRADA NƏ GÖRDÜK, NƏ EŞİTDİK

Neftçaladan Salyana doğru istiqamətlənən asfalt yolunun ikiyə böldüyü bir kənd var. Aşağı Surra kəndi. Vaxtı ilə ana Kürün sahilinə sığınan bu kənd getdikcə genişlənərək sərhədlərinə sığmadı. Onda kolxoz dövrü olduğundan yeni yaşayış məhəlləsinin salınması ilə bağlı asfaltın qarşı tərəfindən torpaq sahəsinin ayrılması barədə qərarı da bu təsərrüfat çıxardı. Onda kənddəki "Azərbaycan" kolxozuna Əbülfəz Eyvazov rəhbərlik edirdi. O vaxtdan başlayaraq yeni ərazidə yeni evlər salındı, buralar aydan-aya, ildən-ilə böyüməyə, genişlənməyə başladı. İndi həmin ərazi ikinci kəndə, yeni yaşayış sahəsinə çevrilib. Buraya cavanlar məhəlləsi də demək olar. Köhnə ərazidən buraya gələnlərin, torpaq sahəsi alaraq özlərinə yurd-yuva quranların əksəriyyəti də elə gənclərdir. Gənclərin tikdirdikləri evlər də özləri kimi yaraşıqlıdır, müasirdir. Hərəsinin də öz gözəllyi, öz memarlıq üslubu var. Dünənindən, tarixi keçmişindən güc alan, ata-babaların ənənələrinə sadiq qalan, onları qoruyub saxlayan gənclik beləcə də inkişaf edir Aşağı Surra kəndində, özünün daha xoş gələcəyinə pərvazlanır bu gənclik. Təkcə ötən il bu yaşayış sahəsində 40-dan çox təzə ev tikilmiş, 30-a yaxın gənc ailə yeni nikaha daxil olmuşdur.

Bu kəndin özünəməxsus ənənələri, özəllikləri var. Böyük deyəni kiçik həmişə eşidib bu kənddə. Elə bu gün də eşidir. Ağıllı, müdrik, torpağa bağlı insanlar idarə ediblər bu kəndi. Ərazidə qurulanların, yaradılanların çoxu da elə onların yadigarlarıdır. İndi onlar qurduqları, yaratdıqları bu yadigarları ilə xatırlanır, yad olunurlar. Ağasadıq Həsənovun, Kərim Mehdiyevin, Abdul Tağıyevin, Səftər Məmmədovun, Mirabbas Ağalarovun, Cəbrayıl Abbasovun, Babaxan Zahidovun, Teyyub Kərimovun və neçə-neçə başqalarının hərəsinin özünəməxsus izi, sorağı qalıb bu kənddə. Təvəkkül Tağıyev, Ənvər Tağıyev, Zakir Məmmədov, Qorxmaz Babayev, Ədalət Abuşov, Həqiqət Bəşirova isə ömürlərinin ağsaqqallıq, ağbirçəklik dövrlərini yaşayırlar. Hamısı da elə, obaya arxadır, dayaqdır. Ağıllı, müdrik sözləri, söhbətləri, məsləhətləri ilə.

Nə yaxşı ki, varislik də bu ənənələr üstündə davam edir. Elə, obaya bu gün də layiqli insanlar rəhbərlik edirlər. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Elşad Tağıyevin sakinlər arasındakı hörməti, nüfuzu şübhəsiz ki, birdən-birə yaranmayıb. Bunun üçün illərlə, on illərlə çalışmaq, elin xeyrinə-şərinə yaramaq gərək olub. İndi Elşad müəllimə kənddə ağsaqqal kimi baxırlar. Cavanlar bir çox məsələlərdə ondan məsləhət alırlar, ondan nümunə götürürlər. Xoş sözləri kənd bələdiyyəsinin sədri Mahir Məmmədovun, kənd tam orta məktəbinin direktoru Həbulla Rəhimovun və bir çox başqalarının da haqqında demək olar. Kəndi irəli aparan da belə insanların arasındakı birlikdir. Bu adamların kifayət qədər həyat təcrübələri olsa da, yeri gələndə onlar özləri kəndin dünyagörmüş qocalarının müdrik sözlərindən, məsləhətlərindən faydalanırlar.

Digər yaşayış məntəqələrimiz kimi Aşağı Surra kəndinin sosial-iqtisadi inkişafının təməlinin, bünövrəsinin də ötən əsrin 70-ci illərində qoyulduğunu desək, yanılmarıq. Neftçala 1973-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə müstəqil rayon kimi fəaliyyətə başladıqdan sonra bu kəndin də ağ günləri başlanmışdır. Böyük ərazilərdə pambıq əkən, taxıl becərən, minlərlə cins heyvan bəsləyən insanlar gəlirlərinin hesabına özlərinə yaraşıqlı evlər tikdirmişdilər, maşın almışdılar, yaxşı gün-güzəran düzəltmişdilər. Aradan altı il ötəndən sonra möhtərəm Heydər Əliyev qurub-yaratdığı Neftçalaya gələndə birinci elə yolunu Aşağı Surra kəndindəki "Azərbaycan" kolxozunun ərazilərindən salmışdı, pambıqçılarla, heyvandarlarla görüşmüşdü, kənd sakinlərilə səmimi söhbət etmişdi. Kəndin yaşlı adamları sevinc dolu o xoş günləri bu gün də böyük məhəbbətlə xatırlayırlar.

İnzibati ərazi nümayəndəliyi kəndə gedən əsas yolun üstündədir. Nümayəndə Elşad Tağıyevlə də elə burada görüşdük. İllərdən bəri aramızda səmimi münasibət var. Elşad müəllim rayon mətbuatından heç vaxt köməyini əsirgəməyib, "Gündoğar"ın abunəsinə həmişə diqqətlə yanaşıb. Çətinliklərin olmasına baxmayraq bu dəfə də köməyini əsirgəmədi, abunəni birincilər sırasında yerinə yetirdi. Ona təşəkkürümüzü bildirdik, işlərilə, kəndin vəziyyəti ilə maraqlandıq:

— Vəziyyətimiz pis deyil, — dedi. — Kəndimizin adamları dünən ictimai təsərrüfatda necə həvəslə, ürəklə işləyirdilərsə bu gün də öz pay torpaqlarında, həyətyanı sahələrində eləcə çalışırlar. Son illər kənd təsərrüfatının inkişafına diqqətin xeyli dərəcədə artırılması, pambıq əkinlərinin genişləndirilməsinə xüsusi önəm verilməsi kənd adamlarının qayğılarını daha da artırıb. Ötən il biz də bu qayğıları yaşadıq. Əfsər Əhmədov, Nazim Abdullayev, Nazim Bəşirov, Həsən Əliyev, Mirqasım Əsgərov və başqa fermerlərimiz pambıq əkib becərməklə məşğul oldular. Bütövlükdə 100 hektar sahəyə çiyid səpilmişdi. Hər şey yaxşı gedirdi. Tarlalarda bol məhsul yetişdirilmişdi. Ancaq payızın son dərəcə yağışlı-yağmurlu keçməsi vəziyyəti çox çətinləşdirdi. Buna baxmayaraq ümumilikdə 160 tondan artıq məhsul toplamağa nail olduq. Yəqin bu il ərazimizdə daha çox pambıq əkiləcək. Bununla əlaqədar indi fermerlərimiz lazımi hazırlıq görürlər. Camaatımızın dolanışığında heyvandarlıq xüsusilə böyük önəm kəsb edir. Elə buna görə də kənd adamları bu sahənin inkişafı üçün də az əmək sərf etmirlər. Taxıl əkirlər, yem tədarük edirlər, digər tədbirləri görürlər ki, özlərinin keyfiyyətli quş ətinə, yumurtaya, heyvandarlıq məhsullarına olan ehtiyaclarını, tələbatlarını ödəyə bilsinlər, bazara məhsul çıxarmaqla qazanc əldə etsinlər. Ötən il ərazimizdə 4200 ton taxılın istehsal olunması, irili-xırdalı heyvanların baş sayının 10 mini ötməsi çəkilən birgə zəhmətin bəhrəsidir.

Yaradılmış bu şəraitə, göstərilən qayğı və diqqətə görə dövlətimizin başçısı cənab İlham Əliyevə, rayon rəhbərliyinə səmimi minnətdarlığını bildirən Elşad müəllim kəndin sosial mənzərəsinə də geniş aydınlıq gətirdi. Öyrəndik ki, 1153 təsərrüfatda birləşən kənd əhalisinin ümumi sayı 5315 nəfərdən artıqdır. Ərazinin özünün bələdiyyəsi, iki məktəbi, həkim məntəqəsi, mədəniyyət evi, kitabxanası, ATS-i, poçtu, sudan istifadə birliyi, baytarlıq məntəqəsi var. Müasir tələblərə cavab verən gözəl şadlıq sarayı, ticarət, ictimai iaşə, məişət obyektləri əhalinin ümumi istifadəsindədir. Hər biri də kənd sakinlərinə adına müvafiq xidmət göstərir, insanların müxtəlif ehtiyaclarını ödəyir. Kənddəki tam orta məktəbin əsaslı təmir olunaraq tamamilə yenidən qurulması, təhsil ocağı üçün əlavə korpusun tikilərək istifadəyə verilməsi təkcə müəllim və şagirdləri deyil, bütün kənd sakinlərini ürəkdən sevindirib. İnsafən, məktəbin pedaqoji kollektivi, şagirdlər də etimadı layiqincə doğruldurlar. Elə il olmur ki, ali məktəblərə tələbə qəbulunda bu məktəb fərqlənməsin, yüksək nəticə göstərməsin. Başlanğıcını bu ərazidən götürən Neftçala Magistral Kanalında işlərin xeyli dərəcədə canlandırılması surralıları da çox sevindirib. Ötən il burada az iş görülmədi. Obyekt istifadəyə verildikdən sonra onlar da bu kanalın bol suyundun kifayət qədər bəhrələnəcəklər. Bununla yanaşı ərazidəki kanallarda müəyyən meliorativ tədbirlərin həyata keçirilməsi də torpaqların məhsuldarlığına öz müsbət təsirini göstərəcəkdir. Buna görə Elşad müəllim daim onların yanında olan rayon suvarma sistemləri idarəsinin rəisi Elçin Əsədova razılığını bildirdi. Kənd adamları, xüsusilə fermerlər, torpaq sahibləri arzu edirlər ki, bu işlər dayanmadan davam etsin, istər suvarma kanalları, istərsə də ərazinin kollektor-drenaj şəbəkəsi tam işlək vəziyyətdə olsun.

Gördüklərimiz, eşitdiklərimiz bizi də ürəkdən sevindirdi. Sevindik ki, çətinliklərə baxmayaraq həyat yerində durmur, irəli gedir. Əməyə, zəhmətə bağlı olan bu kəndin sakinləri də torpağı əkir, becərir, sabaha ümidlə baxırlar.

Fərhad AĞAYEV

İSTEDADLA ZƏHMƏT BİRLƏŞƏNDƏ

Gecə-gündüz yorulmaq nə olduğunu bilmədən öz üzərində çalışmasan, hər yerdə fəallıq, təşəbbüskarlıq göstərməsən heç vaxt irəli gedə, uğur əldə edə bilməzsən. Elşən bu sadə həqiqəti kiçik yaşlarından yaxşı başa düşüb, yaxşı anlayıb. Buna görə dərsdə də, idmanda da, ictimai işlərdə də həmişə fərqlənib, irəlidə gedib, oxuduğu məktəbin qabaqcılları sırasında dayanıb. Bu bir də onunla bağlı olub ki, Elşənin atası Əlihüseyn müəllim də, anası İnkanət xanım da təhsil sahəsində, onun oxuduğu Bankə qəsəbə 2 saylı tam orta məktəbində çalışıb. Evdə də, məktəbdə də valideynlərinin nəzarəti altında olduğuna görə Elşən başqa işlərin ardınca çox gedə, dərsdən çox yayına bilməyib, elmə, biliyə daha çox vaxt ayırıb, daha çox diqqət yetirib, ictimai işlərdə daha çox fərqlənib.

Orta məktəb illərində o tək oxuduğu məktəbin yox, rayonun da qabaqcıl idmançılarından biri sayılırdı. "Şahin" hərbi idman oyunu və həndbol üzrə rayonun yığma komandalarının fəal üzvlərindən idi. Bununla yanaşı bilik yarışlarında, fənn olimpiadalarında da müntəzəm iştirak edir, xüsusilə fizika və kimya fənləri üzrə yarışlarda çox fərqlənirdi. Bu iki fənn elə bil Elşənin xobbisi idi. Boş vaxtlarında ən çox bu iki fənnin incəliklərinə yiyələnməklə məşğul olurdu. Deyirdi həyat elə kimyadan və fizikadan ibarətdir. Bu doğrudan da belədir. Biz hər addımda bu iki elmdən asılılığımızı hiss edib duyuruq, hər addımda bu iki elmin qanunları ilə üzləşirik.

Elşənin bu elmlərə olan güclü istəyi, meyli 2000-ci ildə orta təhsilini başa vurduqdan sonra onu aparıb Bakı Dövlət Universitetinin fizika fakültəsinə çıxardı. Elə ilk ildə hər abituriyentin asanlıqla qəbul oluna bilmədiyi bu fakültəyə qəbul olundu. İki il sonra isə Moskvaya yollandı, təhsilini Moskva Dövlət Universitetinin fizika fakültəsində davam etdirdi. Burada o indiyə qədər görmədiyi, təsəvvür etmədiyi bir aləmlə rastlaşdı, indiyə qədər görmədiyi, təsəvvür etmədiyi yeni bir texnologiya ilə tanış oldu. Moskvaya da elə əsas haqqında təzə eşitdiyi, inkişafının təzə başladığı həmin sahənin — nanotexnologiyanın incəliklərini dərindən öyrənmək, onun nailiyyətlərini gətirib ölkəmizdə tətbiq etmək üçün getmişdi. Burada o iki il ərzində nanotexnologiyanın sirləri ilə hərtərəfli tanış oldu, bu texnologiyaya dərindən yiyələnməyə çalışdı...

Elşənin məşğul olduğu sahə — nanotexnologiya olduqca yenidir, çoxları onun heç adını yaxşı eşitməyib, barəsində dürüst bir məlumata malik deyil. Amma Elşən o texnologiya ilə çoxdan tanışdır, onunla çoxdan məşğuldur. Bəs nanotexnologiyanın özü nə deməkdir, o bizə nələri vəd edir? Bu sualın cavabı geniş olsa da qısa şəkildə aşağıdakıları söyləmək olar.

Ötən əsrin sonlarından fizika, kimya və mühəndislik elmlərinin nailiyyətlərinə əsaslanan yeni bir texnologiya intensiv inkişaf etməyə başladı, XXI əsrin texnologiyası statusunu qazandı. Dünyanın hər yerində bu texnologiya ilə ciddi şəkildə maraqlanır, onun vasitəsilə indiyə qədər görünməmiş uğurlar əldə edirdilər. Çox keçmədən bu texnologiyanın sorağı bizə də gəlib çatdı, bizim cavanlarımız da həmin texnologiya ilə maraqlanmağa başladılar. Belə cavanlardan biri də elə Elşən idi...

Nano elmi, bu elmin imkanları haqqında ilk dəfə dünya şöhrətli fizik, Nobel mükafatı laureatı Riçard



Feynman Kaliforniya Texnologiya İnstitutunda 1959-cu ildə oxuduğu mühazirədə söyləyib. O atom və molekul səviyyəsində baş verən proseslərin məkanında həddən artıq geniş və külli miqdarda boş yerlərin olduğunu deyərək qeyd edib ki, əgər həmin yerlərə daxil olub atom və molekulları orada istədiyimiz kimi düzməyi bacarsaq imkanları qeyri-məhdud olan bir texnologiyanın əsasını qoyarıq. Bu ideyanı reallaşdırmaq yalnız ötən əsrin 80-ci illərində atom qüvvət və skayner mikroskoplarının kəşfindən sonra mümkün oldu. İndi bu texnologiya vasitəsilə maddələr atom və molekullarla manipulyasiya edilir, idarə olunur, yeni keyfiyyətli materiallar alınır, bu materiallardan istifadə edilərək nanoölçülü maşın və mexanizmlər, robotlar, kompüter çipləri, elektronika avadanlıqları, optik cihazlar, sensorlar, ətraf mühitin kimyəvi və fiziki təmizləyiciləri, canlı orqanizmlərə maddələrin, o cümlədən dərman preparatlarının daşınmasını həyata keçirən qurğular yaradılır. İnsan fəaliyyətinin elə bir sahəsi yoxdur ki, bu gün orada nanotexnologiyanın nailiyyətlərindən istifadə edilməsin. Bu texnologiyada araşdırmalar məhz Elşənin kiçik yaşlarından ciddi maraq göstərdiyi, dərindən öyrəndiyi fizika və kimya elminin bazasına əsaslanaraq aparılır. Elə buna görə də o az vaxtda həmin texnologiyanı dərindən mənimsəyə bilib.

Elşən bakalavr təhsili ilə kifayətlənmədi. Moskvada təhsilini başa vurduqdan sonra 2006-cı ildə imtahan verib Bakı Dövlət Universitetinin fizika fakültəsinin magistraturasına qəbul olundu, oranı fərqlənmə diplomu ilə bitirdi.

Elşənin bir üstünlüyü də həmişə nəzəriyyə ilə təcrübəni uzlaşdırmasındadır. O, universitet təhsili aldığı illərdə ixtisası üzrə ayrı-ayrı sahələrdə çalışıb, öyrəndiklərini təcrübədə də sınayıb. 2004-2007-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Radiasiya Problemləri İnstitutunda elmi işçi vəzifəsində çalışan Elşən bu dövrdə bir neçə elmi məqalə də qələmə alıb. Bütün bunlar Elşəni həyata möhkəm hazırlayıb, kamil bir mütəxəssis kimi yetişdirib.

Elşən Sultanov 2008-ci ildən "Azər-Yod" MMC-də baş texnoloq vəzifəsində çalışmağa başlayıb. Hazırda burada texniki direktor vəzifəsini daşıyır. Bakıda, Moskvada əldə etdiyi biliklər indi onun köməyinə çatır. Elşən müəssisənin idarə olunmasına, iqtisadiyyatının möhkəmləndirilməsinə səmərəli köməklik göstərir. "Azər-Yod" MMC-nin fəaliyyəti Elşənin mənimsədiyi yeni texnologiyalarla sıx bağlıdır. İndi müəssisənin məhsulları əvvəlki dədə-baba qaydaları, dədə-baba üsulları ilə yox, dünyanın çoxdan kəşf etdiyi, mənimsədiyi ən yeni qaydalarla, ən yeni texnologiyalarla istehsal olunur. Yeni qaydaları, üsulları isə heç də hamı dərindən bilmir. Elşən bu cəhətdən bütün kollektivə gərəkli mütəxəssisdir. Onun verdiyi dəyərli təkliflər buradakı texnologiyanın daha da təkmilləşməsinə kömək göstərir, müəssisəyə faydalar gətirir.

Müəssisədəki uğurlarında Elşən özü kimi gənc olan, gənc olmasına baxmayaraq dərin biliyə, savada, zəngin təcrübəyə malik Rəşad Xəlilovun diqqətinin, köməyinin də az rol oynamadığını bildirdi. Dedi "Azər-Yod" kimi böyük bir müəssisəyə bacarıqla rəhbərlik edən bu şəxsdə belə yüksək keyfiyyətlər olmasaydı, yəqin ki, bir-birimizi anlaya bilməzdik. Rəşad müəllim gənc olmasına baxmayaraq dünyanı gəzib görən, yüksək təhsil alan, idarəetmənin incəliklərinə yiyələnən bir rəhbərdir. Bu mənada onunla işləmək həm də çox maraqlıdır.

A.MİKAYILOV

Bayram sovqatları verildi

Aztəminatlı ailələrin müdafiəsində əhəmiyyətli rola malik olan ünvanlı dövlət sosial yardımı proqramının icrasında şəffaflığın və ünvanlılığın təmin olunması Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən son illərdə həyata keçirilən mühüm islahatların əsas hədəflərindən olub. Prezident İlham Əliyevin "Ünvanlı Dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi haqqında" 23 fevral 2015-ci il tarixli fərmanı da bu məqsədin reallaşdırılmasına, ünvanlı dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sisteminin (VEMTAS) yaradılmasına imkan yaradıb.

Hazırda Neftçala rayonu üzrə 1331 aztəminatlı ailəyə ünvanlı dövlət sosial yardımı təyin olunmuşdur. Bu təyinatların 943-ü Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsi, 388-i isə VEMTAS tərəfindən həyata keçirilmişdir. Bununla yanaşı həmin ailələrin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində digər tədbirlər də görülür. Ötən ilin dekabr ayında Heydər Əliyev Fondu tərəfindən respublika üzrə ünvanlı dövlət sosial yardımı təyin olunmuş bütün aztəminatlı ailələrə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ərzaq məhsullarından ibarət bayram sovqatlarının verilməsi də bu məqsədə xidmət edirdi. Həmin sovqatların aztəminatlı ailələrin yaşadıqları ünvanlara çatdırılması isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbələrinə tapşırılmışdı. Şöbəmizin kollektivi üzərinə düşən öhdəliyi məsuliyyətlə yerinə yetirərək rayonumuza ayrılmış 1331 aztəminatlı ailənin bayram sovqatını tam olaraq vaxtında ünvanlarına çatdırmağa nail olmuşdur.

Əziz günlərdə belə sovqatların həmin ailələrə verilməsi onların bayram sevinclərini ikiqat artırmışdır. Göstərdikləri qayğı və diqqətə görə aztəminatlı ailələr dövlətimizin başçısına, Heydər Əliyev Fondunun rəhbərliyinə səmimi minnətdarlıqlarını bildirmişlər.

Əli MƏMMƏDZADƏ

Yeni il şənliyində

Respublikamızın hər yerində olduğu kimi, rayonumuzda da Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün və Yeni ilin gəlişi silsilə şənliklərlə yadda qaldı. Ulu öndərin adını daşıyan Mərkəzdəki tədbir isə bunların zirvəsi idi. Tədbirə gələnlər ilk olaraq Mərkəzin böyük və

işıqlı foyesində məktəblilərin əziz bayramlara həsr olunmuş rəsm işlərindən ibarət sərgi ilə tanış olurdular.

Böyük iclas salonunun səhnəsi də yeni il atributları ilə bəzənmişdi. Zalda böyük təntənə yaşanırdı. Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev başda olmaqla digər rəhbər işçilər də bayram şənliyində iştirak edirdilər.

Təntənəli açılışdan sonra məktəbli qızlardan ibarət rəqs qrupu çıxış etdi və onların rəqsi hərarətli alqışlarla qarşılandı.

Sonra rayon icra hakimiyyəti başçısı aparatının nümayəndəsi Elnur Bağırov rayon rəhbərinin tədbir iştirakçılarına və ümumilikdə bütün neftçalalılara ünvanlanmış təbrik məktubunu oxudu. Salondakılar bu səmimi məktuba alqışları ilə cavab verdilər.

Bayram şənliyində bir-birindən gözəl musiqi nömrələri səsləndi. Tanınmış müğənnilərin, incəsənət ustalarının ifasında səslənən xalq mahnıları salondakı bayram əhvali-ruhiyyəsini daha da yüksəltdi. Tamaşaçılar onları alqışladılar.

Şənlikdə ən maraqlı məqamlardan biri də İslam Səfərlinin "Göz həkimi" pyesindən bir parçanın yerli aktyorların ifasında nümayişi oldu. Tamaşaçılar aktyorlarımızın oyununu da ürəkdən alqışladılar.

Yenə də söz musiqiyə, poeziyaya, rəqsə verildi. İstedadlı uşaqlardan ibarət nağaraçılar qrupunun çıxışı da yaddaqalan oldu.

Sonda tədbir iştirakçıları Şaxta Baba və Qar qızla birlikdə xatirə şəkilləri çəkdirdilər.

Zabil PƏRVİZ

Siçanabənzər gəmiricilər və onlara qarşı mübarizə tədbirləri

Məlumat üçün bildiririk ki, taxılın zərərvericisi olan siçanabənzər gəmiricilər (çol və adi tarla siçanı) rayonun bütün ərazilərində müxtəlif sıxlıqda yayılmaqla il boyu bitkilərin yaşıl kütləsi, həm də dənləri ilə qidalanaraq məhsuldarlığın aşağı düşməsinə səbəb olur. Gəmiricilər il ərzində 3-4 nəsil, hər nəsildə 4-8 ədəd bala verməklə ədədi silsilə ilə çoxalırlar.

Əgər hər hektarda məskunlaşmış siçanların sayı 100 ədəd olarsa bu 50 faiz məhsul itkisi deməkdir. Taxıl sahəsinin hər hektarında payızda 50 ədəd, yazda isə 75

ədəd təzə işlək yuva olarsa, o zaman kimyəvi mübarizə tədbirləri aparmaq lazımdır. Suvarılan əkin sahələrində aqrotexniki olaraq suvarma tədbirləri, suvarılmayan dəmyə sahələrdə isə kimyəvi yolla sink-fosfid preparatı bitki yağı və buğda dəni ilə qarışdırılaraq aldadıcı yem hazırlanır və hər işlək yuvaya qaşıqla 8-10 ədəd zəhərli dən qoyularaq yuvanın ağzı tapdalanır. Aldadıcı yem hazırlanmasında istifadə olunan buğda dəni və bitki yağı torpaq mülkiyyətçisi tərəfindən, kimyəvi preparat isə Bitki Mühafizə Mərkəzi tərəfindən təmin edilir. Aldadıcı yem yalnız Bitki Mühafizə Mərkəzi mütəxəssislərinin nəzarəti ilə və təhlükəsizlik tədbirlərinə əməl olunmaqla hazırlanır.



Ziyanvericilərə qarşı mübarizə tədbirləri ötən ilin sonlarından başlanmışdır. İlk belə mübarizə tədbiri rayonun Sarıqamış inzibati ərazisində həyata keçirilmişdir. Ərazinin suvarılmayan taxıl əkini sahələrində siçanabənzər gəmiricilərə qarşı kimyəvi mübarizə başa çatdıqdan sonra mübarizə tədbirləri digər ərazilərdə də davam etdiriləcəkdir.

C.MƏMMƏDOV,
rayon bitki mühafizə mərkəzinin rəisi

GÜNDOĞAR

№1-2 (6625) 22 yanvar 2017-ci il

SON SƏHİFƏ

70 YAŞIN SƏLAHİYYƏTİ VƏ MƏSULİYYƏTİ

Bir mahnıda deyildiyi kimi: “qatar gedir özbaşına, yetdim ixtiyar yaşına, çatıram mənzil başına...” Doğrudan da elə bil biz kimsə tərəfindən idarə olunmayan, daim özbaşına yol gedən qəribə bir qatarın, bu qatarı nə vaxt tərk edəcəyini bilməyən əbədi sərnişinləriyik. Qatarımız bir an belə dayanmadan, nəfəsini dərmədən gecə-gündüz hey yol gedir, bizi müxtəlif mənzillərdən keçirib müxtəlif mənzillərə çatdırır. Həmin mənzillər bizim uşaqlığımız, gəncliyimiz, ahıllıq,.. ixtiyar yaşlarımızdır. Biz bu mənzillərdən necə keçib getdiyimizi, uşaqlığımızı, gəncliyimizi, cavanlıq çağlarımızı nə vaxt, necə yaşadığımızı, nə vaxt, necə arxada qoyub sovuşduğumuzu bilmirik, hiss etmirik. Bir də gözümüzü açıb görürük əbədi sərnişini olduğumuz bu qatar bizi artıq mənzil başına lap yaxınlaşdırıb, yaşımızın ahıllıq, ixtiyar çağına çatdırıb. Bəlkə mənzil başına daha da yaxınlaşdığımızı hiss etdiyimizə, ömrümüzün çoxunun gedib azının qaldığını yaxşı bildiyimizə görə bu dövrdə daha da tələsirik, daha çox xeyirli, faydalı işlər görməyə can atırıq?! Doğrudan da insanın ixtiyar yaşının, ömrünün ixtiyar çağının üstünlükləri, səlahiyyətləri kimi, yükü, vəzifəsi, məsuliyyəti də çox olur. Hansı dövrdə də sabaha ümid bəsləyib səhlənkarlıq etsən, üzərinə düşən yükü, vəzifəni sonraya qoysan da ömrünün bu müdrik, ixtiyar çağında gərək bunu etməyəsən, yaxınlarının, doğmalarının, bütün el-obanın xeyrində, şərində daha yaxından iştirak edəsən, çoxillik təcrübənlə onlara məsləhətlər verə, yol göstərə, çətinliklərini aradan qaldıra, həll edə biləsən...

Aşağı Surra kəndinin sayılıb-seçilən ağsaqqallarından biri, kənd ağsaqqallar şurasının sədri Ənvər Abdul oğlu Tağıyev də uşaqlığının, gəncliyinin, orta yaşlarının nə vaxt keçdiyini, nə vaxt sovuşub getdiyini elə bil bilməyib, hiss etməyib. Bir də gözünü açıb ki, artıq ahıllaşıb, ömrünün ixtiyar çağına çatıb. Ömrünün necə keçib getdiyini, necə gəlib bu ahıl, ixtiyar yaşa çatdığını bir də ona görə bilməyib, hiss etməyib ki, ağlı kəsəndən həmişə fəal, çevik, qıvraq olub, heç vaxt bekar qalmağı xoşlamayıb. Bu yaşda fəallığını, çevikliyini daha da artırıb, kəndin xeyir-şər işlərində daha yaxından iştirak etməyə başlayıb. Buna görə kənd ağsaqqalları onu özlərinin şuralarına sədr seçiblər.

Məsələ insanın yaşında, cavanlığında, ahıllığında deyil. Adam gərək əvvəldən sayıq, fəal, çevik, diribaş olsun, anadan sayıq, fəal, çevik, diribaş doğulsun, əvvəldən ətrafında baş verən



hadisələrə biganə qalmasın. Ənvər müəllim də beləcə əvvəldən fəal olub, ətrafında baş verənlərə heç vaxt biganə qalmayıb. Uşaqlıqdan evin, ailənin qayğıları ilə yaşayıb, hər bir işə gücü çatdığı qədər kömək göstərməyə can atıb. Dərsə gedəndən də oxuduğu məktəbdə həmişə fərqlənib, məktəbin fəalları sırasında olub. Bu fəallıq, çeviklik, bu sayıqlıq ona ilk növbədə valideynlərindən — yaşadıqları Aşağı Surra kəndinin hörmətli, nüfuzlu sakinlərindən biri olan, bu kəndin sovet sədri vəzifəsində çalışan atası Abdul kişidən, pambıq yığımında, sahələrin alaqdan təmizlənməsində, kəndin xeyir-şər işlərində həmişə başda dayanan anası Bacbacı xanımdan keçmişdi. Özündən kiçik qardaş və bacıları — Abdulhəsən, Sevda, Telli, Asudə, Aqibət də ona baxıb tənbəllik etmir, evdə də, məktəbdə də həmişə fərqlənirdilər.

Məktəb illəri Ənvər müəllimin heç yadından çıxmır. 1954-cü ildə o 1-ci sinfə gedəndə Aşağı Surra kənd məktəbi səkkizillik idi. Burada güclü müəllimlər dərs deyirdilər, güclü də şagirdlər təhsil alırdılar. İlk müəllimlərini, onlara ilk dəfə qələm tutub yazı yazmağ öyrədən, ata, ana, Vətən kəlmələrini əzbərlətdirən Rəhimə Məmmədovanı xüsusilə minnətdarlıq hissilə yadına salır. Rəhimə müəllimənin həyat yoldaşı Səftər müəllim də onların sevimli müəllimlərindən idi. Səftər müəllimin oğlu Nazim də onlarla oxuyurdu, həmişə bir yerdə gəzər, dostluq, yoldaşlıq edərdilər. Mirabbas Ağalarov, Cəbrayıl Əsgərov, Əvəz Məmmədov, Babaxan Zahidov... onlara müxtəlif fənlərdən dərs deyir, bu elmlərin sirlərini, əxlaqı, mərifəti dərindən öyrədirdilər. Direktorları əslən bakılı olan Maxanım müəllimə idi. Sonra onu şair təbiətli, şair qəlbli, gözəl şeirlər qələmə alan, yaddaşlarda da gözəl şair kimi qalan Əlisahib Bağırov əvəz etdi.

Məktəb yoldaşları da Ənvərin yaxşı yadındadır. Zakir Məmmədov, Teyyub Kərimov, Məmmədağa Quliyev... Onların əksəriyyəti dərsini yaxşı oxuyur, bir-birinin bəhsinə daha çox kitab mütaliə edir, daha çox şeir əzbərləyirdi. Sonralar bu uşaqların xeylisi özünə müəllimlik peşəsini seçdi, ali təhsil alıb müəllimlik peşəsinə yiyələndi, kəndlərindəki orta məktəbdə dərs dedi, bu təhsil ocağının direktoru, dərs hissə müdiri vəzifələrində çalışdı.

1962-ci ildə Ənvər kəndlərindəki səkkizillik məktəbi başa vurub təhsilini davam etdirmək üçün qonşu Qədimkənd kəndindəki orta məktəbə yollandı. Bu məktəb kəndlərindən xeyli uzaqda yerləşsə də heç vaxt dərsə gecikmədi, həmişə fərqləndi, ictimai tədbirlərdə fəal iştirak etdi. Qədimkənd kənd orta məktəbində oxuduğu üç il ərzində həmin məktəbin şagirdləri ilə də qaynayıb qarışdı, özünə xeyli təzə dostlar, tanışlar tapdı.

1965-ci ildə bu məktəbi də bitirdi. Əksər yoldaşları kimi onun da məqsədi təhsilini davam etdirmək, müəllimlik peşəsinə yiyələnmək idi. Ancaq bu ona qismət olmadı. Əmək cəbhəsinə atıldı. 1969-cu ilə qədər müxtəlif yerlərdə, müxtəlif işlərdə çalışdı. Hara getsə, hansı işin qulpundan yapışsa da təhsilini davam etdirmək, ali təhsil alıb müəllim olmaq fikri onu bir an belə tərk etmirdi. Atalar yaxşı deyib ki, niyyətin hara, mənzilin də ora. 1969-cu ildə arzusuna çatdı. Müvəffəqiyyətlə imtahan verib Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsinə qəbul olundu, tələbə adını qazandı...

İlk dəfə sinfə girməsi, şagirdlərlə ilk dəfə üz-üzə, göz-gözə durması Ənvər müəllimin heç yadından çıxmır. Bu, 1972-ci ildə Salyan rayonunun Düzənli kəndində olmuşdu. İlk təyinatını o kənddəki məktəbə vermişdilər. Sevindirici, həyəcanlı bir vəziyyət idi. Təbiətən sadə, səmimi, mehriban olduğu üçün şagirdlərlə tez dil tapdı, onlarla tez qaynayıb qarışdı, tez dostlaşdı. Sonra Yeniqışlaq kənd əsas məktəbinə göndərildi. 1981-ci ildən isə doğma kəndlərindəki orta məktəbdə dərs deməyə başladı. Bu məktəbdə sıravi müəllimlikdən dərs hissə müdirliyinə qədər yüksəldi. Həmişə də işinə, peşəsinə dərin məsuliyyət hissi ilə yanaşdı, müəllimlərin və şagird kollektivinin dərin hörmətini qazandı.

Ənvər müəllim həm də qayğıkeş, mehriban bir ata, səmimi bir ailə başçısıdır. O, həyat yoldaşı Bikəxanım xanımla birlikdə dörd övlad ərsəyə gətirib. Hamısını da işə, zəhmətə alışdırıb, Vətənə məhəbbət ruhunda tərbiyə edərək boya-başa çatdırıb. Elə buna görə oğlu Vüsal Qarabağ uğrunda qanlı döyüşlərdə cəsarətlə vuruşub, bu döyüşlərdə şirin canını qurban verib, şəhidlik məqamına yüksəlib. Övlad itkisi ağır olsa da Ənvər müəllim bundan heç vaxt şikayətlənməyib, əksinə, şəhid atası adını daşıması ilə həmişə fəxr edib. O, şəhid oğlu Vüsalın şirin qoxusunu indi başqa övladlarından — İlkindən, Elsevərdən, Güneldən, onların övladlarından, şirin-şəkər nəvələrindən alır. Başın uca olsun, şəhid atası.

Bu yubileyli günlərində yaxınları, doğmaları, əzizləri başına yığışıb 70 yaşına çatması münasibətilə Ənvər müəllimi ürəkdən təbrik edir, ona möhkəm can sağlığı, səadət, xoşbəxtlik, nəvə-nəticə toyu arzulayırlar. Bu səmimi təbriklərə biz də ürəkdən qoşuluruq, qayğıkeş müəllimə, səmimi ailə başçısına, müdrik el ağsaqqalına biz də uzun ömür, möhkəm can sağlığı, səadət və xoşbəxtlik arzulayırıq.

Əlövsət ƏLİYEV

Səməd Vurğun — 110

ÖLMƏZ ŞAİRİN YUBİLEY TƏDBİRİ

Başa vurduğumuz 2016-cı il yaddaşlarda bir də ölməz şairimiz Səməd Vurğunun anadan olmasının 110-cu yubiley ili kimi qaldı. İl boyu respublikanın hər yerində, eləcə də bizim rayonda böyük şairin yubileyi ilə bağlı bir-birindən maraqlı tədbirlər keçirilmiş, Səməd Vurğunun bədii yaradıcılığına, ictimai-siyasi fəaliyyətinə geniş nəzər yetirilmişdir. Dekabr ayının son günlərində şəhər 2 saylı tam orta məktəbinin Təhsil muzeyi ilə birlikdə keçirdiyi maraqlı tədbir də məhz dahi şairin 110 illik yubileyinə həsr olunmuşdu.

Məktəbin direktoru Rövşən Həsənov geniş iclas zalında keçirilən tədbiri giriş sözü ilə açaraq gələn qonaqları salamladı, tədbiri hazırlayanlara təşəkkürünü çatdırdı. Aparıcı Zeynəb Muradova Səməd Vurğunun ədəbi irsi barədə qısa məlumat verdi, "Azərbaycan" şeirini onun yaradıcılığının uvertursası adlandırdı. Qeyd etdi ki, şairin sevə-sevə tərənnüm etdiyi Azərbaycan bizim hamımızın vətənimizdir. Şifahi xalq ədəbiyyatı, xalqın yaratdıqları Səməd Vurğun poeziyasının ruhunu, mayasını təşkil edir. Şairin yaradıcılığına Nizami Gəncəvi və Vaqif poeziyası xüsusilə güclü təsir göstərib. Onun ən böyük əsəri olan geniş tamaşaçı sevgisi qazanmış "Vaqif" dramı XVIII əsrin nəhəng söz ustadı Molla Pənah Vaqifə həsr edilib.

Sonra şairin həyat və fəaliyyəti barədə məruzə etmək üçün söz məktəbin dil-ədəbiyyat müəllimi Mehriban Əzizbəyliyə verildi. O, Səməd Vurğunun keçdiyi həyat yolu barədə ətraflı məlumat verərək göstərdi ki, böyük şair 21 mart 1906-cı ildə Qazax qəzasının Yuxarı Salahlı kəndində anadan olub. Balaca Səməd uşaqlıq illərini doğma kəndində keçirib, ibtidai təhsilini kənddəki rus-tatar məktəbində alıb. Daha sonra Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsində təhsil alıb, elə həmin illərdə də ilk şeirlərini yazıb. Bundan sonrakı illərdə isə şairə şöhrət qazandıran çoxsaylı lirik şeirləri, poemaları, dram əsərləri oxucunun ixtiyarına verilib.

Mehriban müəllimə Səməd Vurğun poeziyasının səfərbəredici və şəfaverici qüdrətindən söhbət açaraq göstərdi ki, Səməd Vurğunun yüksək vətənpərvərlik hissləri ilə dolu olan şeirlərindən güc alan qəhrəman oğullarımız Böyük Vətən müharibəsinin qanlı döyüşlərində misilsiz rəşadətlər göstərmiş, qorxu bilmədən ana və bacılarını düşmən təcavüzündən xilas etmişlər. Şairin insanı həyata, yaşamağa səsləyən inam dolu lirik şeirləri isə xəstə könüllərə şəfa verən ən təsirli dərmandır. Onun uzaq Çində, Pekin xəstəxanasında qələmə aldığı

Vaxtsız əcəl,
məndən uzaq dayan, dur,
Qürbət eldə can vermərəm ölümə!
Qılıncını məndən uzaq dolandır.
Onu bil ki, qələm aldım əlimə,
Qürbət eldə can vermərəm ölümə!..

şeiri bir çox başqaları kimi şəxsən məni də ürəkləndirib, düçar olduğum ağır xəstəliyə qalib gəlməkdə köməyimə çatıb.

Zeynəb xanım Səməd Vurğunun 110 illik yubiley tədbirinin hazırlanıb keçirilməsi təklifinin təhsil muzeyinin rəhbəri, qocaman təhsil işçisi, respublikanın Əməkdar müəllimi Tədbir Mahmudov tərəfindən gəldiyini razılıq hissi ilə qeyd



edərək sözü Tədbir müəllimin özünə verdi. Tədbir müəllim böyük şairin yaradıcılığından məhəbbətlə söhbət açdı. Qeyd etdi ki, bütövlükdə Səməd Vurğunun yaradıcılığı Azərbaycanın poetik ensiklopediyası adlandırıla bilər. Bu ensiklopediyada "Azərbaycan" şeirinin ayrıca bir yeri var. Bu şeir poetik bir xəzinədir. “Azərbaycan” şeirində ölkəmizin bütün bölgələri, dağları, dərələri, çayları... tərənnüm olunur. Ümumiyyətlə, Səməd Vurğunun yaradıcılığı heç vaxt saralıb solmayacaq, İllər keçdikcə daha da parlayacaq, əbədi yaşayacaq.

Tədbir müəllim böyük şairlə bağlı xatirələrindən danışaraq göstərdi ki, Səməd Vurğun əsl xalq şairi, xalq adamı idi, o həmişə xalqın, sadə adamların içərisində olurdu. Böyük şair bizim Neftçala torpağı ilə də yaxından bağlı idi. Ovçuluğa maraq göstərən Səməd Vurğun tez-tez rayonumuzun ərazisindəki qoruqlara da ova gələr, burada da ov edərdi. Bir dəfə rayonumuzda ov edərkən təbiətin mühafizəsinə baxan Alsı kişi onu tanımayaraq sorğu-suala tutur, niyə burada icazəsiz ov etdiyini xəbər alır. Səməd Vurğun da gülə-gülə ona cavab verib deyir:

A kişi, dayan, toxta, dur,
Vurduğumuz burdadır.
İkicə güllə atmışıq,
Bircə fıyıq vurmuşuq.

Fıyıq ovçuların balaca ördək balasına verdikləri addır. Alsı kişi onu tanıyaraq təkidlə evinə qonaq aparır, ehtiramla şairin qulluğunda dayanır. Bundan sonra onlar həmişə dostluq edirlər.

Tədbir müəllim dedi mən böyük şairi cəmi iki dəfə görmüşdüm. Birinci dəfə sağlığında, 1954-cü ildə rayonumuzda onunla keçirilən unudulmaz təntənəli görüşdə, ikinci dəfə isə 1956-cı ildə böyük şair dünyasını dəyişəndə, Dzerjinski adına sarayda qoyulmuş tabutda. Şairin nurlu üzündə yenə eyni ifadə, eyni doğmalıq vardı, o hamıya yaxın, doğma idi.

Yubiley tədbirində iştirak edən qonaqlar — Həsənabad qəsəbə tam orta məktəbinin direktoru Şakir Bəşirov, həmin məktəbin keçmiş müəllimləri Müslüm İsmiyev, Tahir Əsədov, şəhər 4 saylı tam orta məktəbinin müəllimi Ələkbər Zahidov və başqaları belə bir maraqlı tədbir təşkil etdiklərinə görə 2 saylı tam orta məktəbinin pedaqoji kollektivinə, məktəbin direktoru Rövşən Həsənova, təhsil muzeyinin rəhbəri Tədbir Mahmudova təşəkkürlərini bildirdilər, böyük şairin haqqında ürək sözlərini söylədilər. Bildirdilər ki, Səməd Vurğunun “Vaqif” əsərinin sadə, səlis sətirləri neçə-neçə nəslin dilinin əzbəri olub, neçə nəsil bu əsəri əvvəldən axıra qədər əzbərdən bilib. Bu sözlərin təsdiqi kimi Həsənabad qəsəbə tam orta məktəbinin direktoru Şakir müəllim “Vaqif” dramının xeyli hissəsini əzbərdən söylədi.

Tədbir iştirakçıları göstərdilər ki, Səməd Vurğun özünün nadir istedadı ilə bütün xalqın qəlbində əbədi iz salıb, əzəmətli heykəlini ucaldıb. Böyük şairin adını dövlət də həmişə uca tutub, bu adı əbədiləşdirib. Bakının mərkəzində şairin möhtəşəm heykəli qoyulub, adına bağ salınıb, küçə, poeziya evi verilib, Xəzər dənizində neft daşıyan tankerlərdən biri də onun adını daşıyır.

Tədbir boyu xalq şairi Səməd Vurğunla bağlı videoçarx nümayiş etdirildi, şairin öz ifasında şeirlər, sözlərinə yazılmış mahnılar səsləndirildi. Ulu öndər Heydər Əliyevin Səməd Vurğunun “Azərbaycan” şeirini söyləyərkən kövrəlməsi tədbir iştirakçılarını da kövrəltdi, onların qəlbini böyük şairə və ulu öndərə qarşı səmimi hisslərlə doldurdu.

Tədbirdə xüsusi olaraq vurğulandı ki, şairin övladları da atalarının yolunu layiqincə davam etdirmiş, ədəbiyyat sahəsində böyük uğurlar qazanmışlar. Azərbaycan ədəbiyyatı və mədəniyyəti qarşısındakı böyük xidmətlərinə görə Səməd Vurğunun oğlu Yusif Səmədoğlu Azərbaycanın xalq yazıçısı, Vaqif Səmədoğlu Azərbaycanın xalq şairi, qızı Aybəniz Vəkilova isə əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülüb.

Məktəbin yuxarı sinif şagirdləri şairin müdrik kəlamlarını, şeirlərindən parçaları əzbər söylədilər, bu şeirlərdən ibarət kompozisiya nümayiş etdirdilər.

Sonda xatirə şəkilləri çəkildi.

Ə.ƏLİYEV

2017-ci ilin birinci yarısı üçün “Gündoğar”a abunə yazılışı davam edir

Hörmətli oxucular!

Respublikamızın ictimai-siyasi həyatı, rayonumuzda görülən işlər, həyata keçirilən tədbirlər, milli mənəvi dəyərlərimizi, ayrı-ayrı insanların ömür yollarını, talelərini əks etdirən maraqlı yazılar və digər materiallar Neftçala Rayon İcra Hakimiyyətinin təsisçisi olduğu “Gündoğar” qəzetinin ana xəttini təşkil edir. Belə yazıları, materialları oxumaq, özünüz də bu yazıların müəllifləri olmaq istəyirsinizsə onda 2017-ci ilin birinci yarısı üçün qəzetimizə abunə yazılmağı unutmayın.

Diqqətinizə çatdırırıq ki, respublikamızın digər mətbuat nümunələri kimi “Gündoğar” qəzetinin əsas maliyyə mənbəyi də abunədir. “Gündoğar” qəzeti də abunədən toplanan vəsait hesabına çap olunur və rayon ərazisində yayılır.

Abunə redaksiyada və “Kapitalbank”ın Neftçala filialında nağd və köçürmə yolu ilə həyata keçirilir.

1 illik abunə qiyməti 40 (qırx), 6 aylıq abunə qiyməti isə 20 (iyirmi) manatdır.

Əlaqə telefonumuz: 3-44-03,
mobil: (050) 333-72-30; (055) 669-56-71

Neftçala rayonu Aqrar İslahatı Komissiyasının 1998-ci il 14 dekabr tarixli, 33 saylı qərarı ilə Abasallı kənd sakini Əfsər Əsgərbala oğlu Əsgərovun adına verilmiş torpağa mülkiyyət hüququna dair dövlət aktı (JN№0089, KOD 80708028) itdiyinə görə etibarsız sayılır.

Neftçala şəhər sakini Salman Kamran oğlu Ağamalıyevin adına verilmiş JN-583F (KOD 80701004) nömrəli, 24 may 2006-cı il tarixli Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyinə görə etibarsız sayılır.

Göz yaşı və gülüş haqqında nə bilirik?

Bildiyimiz kimi gülməyin insan sağlamlığına olduqca müsbət təsiri var. Həkimlərin “daha uzun yaşamaq üçün daha çox gülün” demələri də bununla bağlıdır.

Bəs ağlamaq necə, zərərlidirmi? Əlbəttə, yox! İnsanlar ağlamağın həm kişilər, həm də qadınlar üçün zəiflik əlaməti olduğu qənaətindədirlər. Lakin əslində ağlamağın bədənimizə müsbət təsirləri mövcuddur.

Göz yaşlarımızda lizozim adlanan və qarşısına çıxan bakteriyaları öldürən bir hormon vardır. Ağlayarkən göz yaşları həmin bakteriyaları öldürür. Ağlamağın gözləriniz üçün digər bir faydası da gözünüzə düşən yad cisimlərin gözünüzdən atılmasını təmin etməkdir. Əgər gözünüzdə çıxara bilmədiyiniz cisim hiss edirsinizsə, ağlamaq məsləhətdir.

Ağlamaq insanın özünə güvən duyğusunu artırır. Çünki göz yaşı tökküldüyü vaxt hər kəsin ağlayana olan diqqəti və marağı ona sevildiyini xatırladır və özünə olan inamını artırır. “Sosial və Klinik Psixologiya” jurnalında aparılan araşdırmada ağlayan insanların ruh sağlamlığının daha tez düzəldiyi müəyyən olunub. Xüsusilə bir xoşbəxt hadisədən sonra gələn ağlamağın ruh sağlamlığına müsbət istiqamətdə maksimum təsir etdiyi sübuta yetirilmişdir.

Günümüzün ən çox rast gəlinən xəstəliyi olan stressdən ağlayaraq xilas olmaq mümkündür. Ağlamaq gözün istirahəti ilə yanaşı, elə bir hormon ifraz edir ki, stressi yox edir. Ağlamaq endorfin də ifraz olunmasına səbəb olur. Endorfin insana sevinc bəxş edən xoşbəxtlik hormonudur. Sevinc bəxş etməklə yanaşı, eyni zamanda ağrıların azalmasına da kömək edir.

Ağlamaq ürək və damar xəstəlikləri ilə yanaşı, mədə, sümük və əzələlərin də dərmanıdır. Ağlayaraq bədəninizdən bu tipli narahatlıqlara səbəb olan bəzi hormonların atılmasını təmin edə bilərsiniz. Ağlamaq eyni zamanda yuxusuzluq problemini də həll edir. Kədərli olduğu zaman göz yaşı tökən insanlar digərlərinə nisbətən rahatlanaraq daha rahat yatırlar. Ağlamağın gözlər üçün daha mühüm bir faydası da mövcuddur. Göz yaşında xüsusi olan bir maddə var ki, əgər heç vaxt axmazsa, göz quruluğu xəstəliyinə səbəb olur. Hərdənbir ağlayan adam beləcə bu xəstəliyə tutulmaqdan xilas olur.

Nəhayət, göz yaşları qan təzyiqini tənzimləyir. Kədərli, düşüncəli, sevincli məqamlarda qan təzyiqi düşən və qalxan adam ağlayarkən təzyiq normaya düşür.

Bəs gülüşün insan orqanizminə hansı faydaları var? Göz yaşından fərqli olaraq gülüşün faydaları haqqında daha çox yazıblar və deyiblər. Hətta bu qənaətə də gəliblər ki, üç dəqiqə ürəkdən gülən adamın ömrü bir ay uzanmış olur.

Gənc ata və ananın ən böyük sevincinə səbəb onların dünyaya göz açmış körpələrinin gülüşü olur. İnsan ömrünün ilk illərində gülüş daha çox səmimi, riyadan uzaq olur. Lakin insanlar yaşa dolduqca gülüşlərinə müxtəlif “çalar”lar qarışır, səmimi gülüşlə qeyri-səmimi gülüş bəzən tez-tez yerini dəyişir. Əlbəttə, biz səmimi gülüşün, qarışığı olmayan saf gülüşün faydalarından danışırıq. Mənəvi cəhətdən güclü olan insanlar daha tez-tez gülümsəyirlər və ətraflarında olan insanlara xoş aura, sevinc və xoş əhvali-ruhiyyə bəxş edirlər.

Gülüş zamanı insan orqanizmində vitamin “S”nin, yəni askorbin turşusunun miqdarı artır. Bu da öz növbəsində bədəndə immunitetin fəallığını artırır, insanın əhvali-ruhiyyəsini yüksəldir, neqativ hisslərdən, bədbinlikdən, yorğunluqdan uzaqlaşdırır.

Psixoloqlar gülüşün bütün sirlərini açmağa çalışırlar. Növbəti araşdırma 2009-cu ildə aparılıb və şəkillərə əsasən 2000 insanın taleyi izlənib. Məlum olub ki, uşaq yaşlarında çox gülən böyüyəndə daha gözəl ailə başçısı olur, sağlam və möhkəm ailəyə sahib olur. Onların arasında boşanma səviyyəsi 11 faizi keçməyib, lakin qaraqabaq və həddindən artıq ciddi insan arasında faiz 25-dən çoxdur.

Vaxtilə ölməz şairimiz Mikayıl Müşfiq yazırdı:

Cahan ki solmayan
bir bağça-bağdır,
Burda rəvadırmı gülmədən ölmək?!
Yazıq o şəxsə ki, qaraqabaqdır,
Nə qədər yaraşır insana gülmək!



Qurbanxan PİRƏLİYEV,
həkim

VALİDEYNLƏR ÜÇÜN YADDAŞ

İntizamsız davranışın səbəbləri

Adətən həyatda pis mühitə düşən yeniyetmələr bədbəxt hadisələrlə tez-tez qarşılaşırlar. Uşaqların əksəriyyəti özlərini tənha və yalqız, yaxınları tərəfindən təcrid olunmuş hiss etdikləri zaman gözlədikləri qayğı və anlaşmanı dostları arasında axtarmağa başlayırlar. Belə vaxtlarda onlar öz səhhətləri və ya başlarına gələcək hadisə barədə düşünmürlər. “Mən onsuz da heç kimə lazım deyiləm” prinsipinə üstünlük verirlər. Belə problemlərlə üzləşməmək üçün:

— Övladlarınızla etibarlı dostluq münasibətləri qurun. Onların problemləri ilə maraqlanın.

— Onlarla hörmətlə, özünüzlə bərabər səviyyədə danışın.

— Onların hisslərini lağa qoymayın, onlara “kaş mənim də problemlərim sənin kimi olardı” deməyin.

— Onlara acıqlanmayın və onlara qarşı təcavüzkar olmayın. Səbirli və müdrik olun.

— Uşaqların maraqlandığı insan haqqında sayğısız və təhqiredici tonda danışmayın.

— Onların əlaqələrini kobud və qəti şəkildə kəsməyin.

— Uşaqlarınızın dostlarını qonaq çağırın, onlarla tanış olun. Bu sizə övladınızın dostlarını tanımağa kömək edəcək. Onlara dostları ilə evdə görüşməyə icazə verin ki, onlar bunun üçün başqa yer axtarmasınlar.

— Övladlarınızla dostluq əlaqəsi yaratmağa çalışın, evinizdə elə ab-hava yaradın ki, onlar sizin varlığınızı, onları sevdiyinizi hər zaman hiss etsinlər. Hər bir hərəkətinizlə onlara örnək olun!

Baş redaktor
H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız:
Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38,
Telefon: 3-44-03
Mobil: (050) 333-72-30, (055) 669-56-71
H/H: №AZ95AIIB33080019446400258164
VÖİN: 6500044671

Qəzet “GÜNDOĞAR”ın kompüter mərkəzində yığılıb səhifələnmiş və “BZ” mətbəəsində çap olunmuşdur.
Dizayn Fərhad Ağayevin, fotolar Muradındır.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Tiraj: 600 Sifariş №2
Bir nömrənin qiyməti: 40 qəpik.